

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 223(7148)

4 dekabr 2024-cü il.
Qiyməti 60 qəpik

## Milli Məclisdə 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri təsdiqlənib



3

# Azərbaycan - mühüm və etibarlı TƏRƏFDAŞ!



2

Mavritaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib

# Baydenin "ədalət"i

## Müttəfiqləri də ABŞ prezidentinin oğlunu əfv etmək qərarının düzgünlüyünə şübhə edirlər





6

## Kəlbəcər - itirilən və qaytarılan: Azərbaycan dağlarında yaşayanlar




5

## Dəblə soyumuzu necə qurudurlar?



13

## DİQQƏT: Qışda dərslər gec başlayacaq?



16

## Suriyada hərarət artdı



11

## Qaçqınsız dünya quraq!



6



# Azərbaycan - mühüm və etibarlı TƏRƏFDAŞ!

## Prezident İlham Əliyev Yəmənin, El-Salvadorun və Mavritaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib

***Prezident İlham Əliyev dekabrın 3-də Yəmən Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Saleh Əhməd Turiqin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib, Prezident İlham Əliyev səfirlə söhbət edib. Dövlətimizin başçısı COP29 zamanı Yəmənin vitse-prezidenti ilə görüşünü xatırladaraq, bunun əlaqələrimizin tarixində bu səviyyədə ilk görüş olduğunu qeyd edib və orada müzakirə olunan məsələlərin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb. Prezident İlham Əliyev, ilk növbədə, beynəlxalq müstəvidə qarşılıqlı dəstəyin davam etdirilməsinin, iqtisadi sahədə, o cümlədən ticarət, sərmayə qoyuluşu və digər istiqamətlərdə imkanların araşdırılmasının zəruriliyini bildirib.***

Səfir, əvvəlcə Yəmən Prezident Şurasının sədri Rəşad Məhəmməd əl-Aliminin salamlarını və Azərbaycan xalqının rifahı ilə bağlı yeni uğurlar arzusunu Prezident İlham Əliyevə, həmçinin Yəmən xalqının salamlarını Azərbaycan xalqına çatdırıb. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Yəmən Prezident Şurasının sədrinə çatdırmağı xahiş edib. Məhəmməd Saleh Əhməd Turiq, eyni zamanda, bu günə qədər beynəlxalq təşkilatlar çərçivəsində Yəmənə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi və bunu yüksək qiymətləndirdiklərini deyib.

Səfir COP29-un çox yaxşı səviyyədə təşkili ilə bağlı təbriklərini ifadə edərək vurğulayıb ki, bu tədbir dövlətimizin başçısının müdrik rəhbərliyini bütün dünyaya göstərib, COP29-da iştirak edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın gücünün, qüdrətinin bir daha şahidi oldular.





Məhəmməd Saleh Əhməd Turiq Azərbaycan ərazilərinin işğaldan azad edilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bu yaxınlarda Qarabağa səfərini məmnunluqla xatırlayıb və bundan şərəf duyduğunu deyib. Səfir dövlətimizin başçısının rəhbərliyi ilə orada aparılan bərpa və quruculuq işlərinin böyük heyranlıq doğurduğunu vurğulayıb, qısa müddətdə şəhərlərin salınmasının, yol-nəqliyyat qovşaqlarının, tunellərin ərsəyə gətirilməsinin Azərbaycan dövlətinin gücünün bir daha təzahürü olduğunu qeyd edib. Diplomat Yəmənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, iki qardaş ölkə arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini bildirib. Səfir Yəmənin iqtisadi sahədə də Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olduğunu vurğulayıb və bununla bağlı ölkəsinin iş adamlarının Azərbaycana səfərinin təşkilinin önəmini qeyd edib.

Hələ sovet dövründə Azərbaycanda Yəməndən çoxsaylı tələbənin təhsil aldığını və həmin mütəxəssislərin müxtəlif sahələrdə Yəmənin inkişafına töhfə verdiklərini deyən səfir yəmənli tələbələrin ölkəmizdə təhsil alması ənənələrinin davam etdirilməsinin vacibliyinə toxunub. Söhbət zamanı Azərbaycanın və Yəmənin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd olundu, iqtisadiyyat, ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə işbirliyi imkanlarının araşdırılmasının vacibliyi bildirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də El-Salvador Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Enrike Haime Kalderonun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib, Prezident İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı əməkdaşlığımızın qurulması istiqamətində səfirin öz səylərini əsirgəməyəcəyinə, bu baxımdan onun Azərbaycanın rəsmi qurumları ilə səmərəli əlaqələr quracağına ümidvar olduğunu bildirərək, bir sıra sahələrdə, o cümlədən iqtisadi əməkdaşlıqla bağlı imkanların müəyyənləşdirilməsinin zəruriliyini vurğulayıb.

Səfir, ilk növbədə, COP29-da ölkəsinin iştirakını məmnunluqla xatırlayaraq, bu tədbirin yüksək səviyyədə təşkil edilməsi ilə bağlı Azərbaycan Prezidentini təbrik edib. O vurğulayıb ki, COP29-un təşkili, ölkəmizin inkişafı və əldə etdiyi nailiyyətlər, Bakı şəhərinin gözəlliyi bu tədbir zamanı El-Salvadordan Azərbaycana səfərə gəlmiş nümayəndə heyətinə dərin təəssürat bağışlayıb.

Bu il Azərbaycanla El-Salvador arasında diplomatik münasibətlərin yaradılmasının 25 illiyinin qeyd edildiyini deyən Enrike Haime Kalderon müxtəlif istiqamətlərdə əməkdaşlığın qurulmasının vacibliyinə, o cümlədən infrastruktur, nəqliyyat, energetika sahələri üzrə ölkəsinə investisiya qoyuluşu imkanlarının müəyyən edilməsinin önəminə toxunub.

Səfir Azərbaycanın energetika sahəsində böyük uğurlar qazandığını vurğulayaraq, bu istiqamətdə ölkəmizin təcrübəsinin öyrənilməsində maraqlı olduqlarını bildirib. Dövlətimizin başçısı əlaqələrimizin irəli aparılması üçün, ilk növbədə, adi insanların və biznes dairələrinin ölkələrimiz barədə daha çox məlumatlanmalarının vacibliyinə toxunub. Söhbət zamanı Azərbaycanla El-Salvador arasında iqtisadiyyat, ticarət, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edilib.

Prezident İlham Əliyev dünən həmçinin Mavritaniya İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sid Əhməd əl-Bekaye Hamadinin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib, Prezident İlham Əliyev səfirlə söhbət edib.

Azərbaycanın və Mavritaniyanın ənənəvi olaraq dostluq şəraitində əməkdaşlıq etməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı bunun beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də qarşılıqlı dəstək və birgə fəaliyyətdə də özünü büruzə verdiyini deyib.

Prezident İlham Əliyev müxtəlif sahələrdə münasibətlərimizin möhkəmləndirilməsinin önəminə toxunaraq, siyasi əlaqələrimizin genişləndirilməsinin, ikitərəfli əməkdaşlığın inkişafında qarşılıqlı səfərlərin təşkilinin, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini qeyd edib.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ilk növbədə Mavritaniya Prezidenti Məhəmməd uld Şeyx əl-Qazuaninin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırıb. Sid Əhməd əl-Bekaye Hamadi vurğulayıb ki, Mavritaniya Prezidenti dost ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndirilməsi ilə bağlı ona tapşırıqlar verib.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Mavritaniya Prezidentinə çatdırmağı xahiş edib. Sid Əhməd əl-Bekaye Hamadi COP29-un çox uğurla keçirilməsi və Azərbaycan Prezidentinin müdrik rəhbərliyi ilə ölkəmizin böyük nailiyyətlər qazanması və sürətli inkişafı münasibətilə təbriklərini çatdırıb.

Ölkələrimiz arasında əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğunu deyən səfir səhiyyə, təhsil, kənd təsərrüfatı, balıqçılıq və mədənçilik sahələrindəki geniş imkanları qeyd edib. O, həmçinin Mavritaniyadan olan tələbələr üçün Azərbaycanda təhsil təqaüdlərinin verilməsi imkanlarına baxılmasını xahiş edib. Görüşdə ikitərəfli iqtisadi-ticari əlaqələrin potensialının araşdırılması üçün müvafiq işçi qruplarının yaradılması və səfərlərin təşkil edilməsi məsələsi qeyd olunub. Söhbət zamanı elm və təhsil sahələrində əməkdaşlıqla bağlı da fikir mübadiləsi aparıldı.

# Milli Məclisdə 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri təsdiqlənib




***Dekabrın 3-də Sahibə Qafarovanın sədrliyi ilə parlamentin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda hökumət üzvləri də iştirak ediblər. Milli Məclisin sədri Sahibə Qafarova gündəliyə 10 məsələnin - 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələrinin ikinci oxunuşda daxil edildiyini diqqətə çatdırıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov birinci məsələ - "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib.***



O bildirib ki, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi həm komitələrdə, həm də Milli Məclisin plenar iclasında birinci oxunuşda geniş müzakirə olunub. Plenar iclasdan sonra büdcə zərfinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə ikinci oxunuşda müzakirəsi keçirilib və komitə üzvlərinin qaldırdığı məsələlərə münasibət bildirilib.

Azər Əmiraslanov qeyd edib ki, 2025-ci ilin büdcə zərfində makroiqtisadi sabitlik, davamlı iqtisadi artım və büdcə dayanıqlılığı, iqtisadi siyasətin prinsipləri və əsas hədəfləri müəyyən edilir. Rifaha və iqtisadi artıma yönəldilmiş xərclər bir-birini tamamlayır və günün reallıqlarına cavab verir. Sonra iclasda məsələ ətrafında müzakirələr aparılıb.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra gündəliyin növbəti iki məsələsi - "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələri təqdim edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu məsələlər barədə məlumatında hər iki layihənin birinci oxunuşda ətraflı təqdim edildiyini söyləyib. O xatırladıb ki, Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsinin gəlir və xərcləri cari illə müqayisədə 10,5 faiz, İşsizlikdən Sığorta Fondunun növbəti il büdcəsinin gəlir və xərcləri isə cari illə müqayisədə 9,5 faiz çoxdur. Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov hər iki sənəd barədə bu komitənin müsbət rəyini açıqlayıb.

Müzakirələrdə çıxış edənlər təqdim olunmuş sənədlərin əhalinin sosial rifahının yaxşılaşmasında, xalqımızın gələcək həyat səviyyəsinin daha da yüksəldilməsində mühüm əhəmiyyət daşıdığını söyləyiblər. Deputatlar növbəti ildə sosial müdafiə sahəsinə ayrılan vəsaitin artırılmasının əhalinin müxtəlif sosial qruplarına dövlət dəstəyinin bariz nümunəsi olduğunu deyiblər. Bildirilib ki, təqdim olunan qanun layihələri 2025-ci ildə də sosial siyasətin uğurla davam etdirilməsinə xidmət edəcək.

Sonra "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Layihəyə əsasən, əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 2025-ci il üçün ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilir. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələyə dair bu komitənin müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Musa Quliyev "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. O, 2025-ci il üçün ehtiyac meyarının həddinin 285 manat məbləğində müəyyən edildiyini diqqətə çatdırıb. Komitə sədri artıq üç ildir ki, ehtiyac meyarının yaşayış minimumuna bərabər tutulduğunu qeyd edib.

Azər Əmiraslanov məsələ barədə bu komitənin müsbət rəyini səsləndirib.

Müzakirələrdə deputat Əli Məsimli məsələ barədə öz fikirlərini açıqladıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Azər Əmiraslanov, eyni zamanda, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, Məcəlləyə edilən dəyişikliklərdə güzəştlərin miqyasının və dairəsinin genişləndirildiyini, bunun o cümlədən humanitar, mədəniyyət sahələrinə də şamil edildiyini deyib.

Sənəddə investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılmasına dair, teatr, kino, muzey və simfonik orkestr fəaliyyəti üzrə vergi güzəştlərinin verilməsi, bəzi xidmət sahələri üzrə mikrosahibkarların gəlirlərinə 75 faiz vergi güzəştinin müvafiq tələblərlə şərtləndirilmədən tətbiq edilməsi, ölkə ərazisində istehsal olunan avtobusların satışının, habelə təsdiqedici sənəd əsasında istehsal məqsədilə avtobusların ehtiyat hissələrinin idxalının ƏDV-dən azad edilməsi, tibb turizminin inkişafı məqsədilə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə tax-free rejimində ƏDV-nin geri qaytarılması, sənaye məhəllələrinin istifadəsində olan torpaq sahələrinə və əmlaklara görə idarəedici təşkilatın və operatorun torpaq və əmlak vergisindən azad edilməsi ilə bağlı və digər güzəştlər nəzərdə tutulub.

Layihədə bununla yanaşı, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi, vergitutma bazasının genişləndirilməsi, o cümlədən bazarlara nəzarət üzrə qanunvericiliyə dəyişikliklərin edilməsi, həyatın yığım sığortası sahəsində vergi və sosial sığorta üzrə güzəştlərin məhdudlaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması ilə bağlı, həmçinin bir sıra uyğunlaşma xarakterli dəyişikliklər də təklif olunur.

Sonra komitə sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Vergi ödəyiciləri və vergi orqanı arasında qarşılıqlı məlumat mübadiləsinin asanlaşdırılması məqsədilə hazırlanan qanun layihəsində heç bir dəyişikliyin aparılmadığını deyən komitə sədri sənədin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Növbəti məsələ - "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı da komitə sədri Azər Əmiraslanov təqdim edib. O bildirib ki, nağd hesablaşma limitləri ilə bağlı olan bu qanun layihəsi ilə əlaqədar hər hansı bir qeyd, təklif daxil olmayıb.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) mahiyyəti barədə məlumatı diqqətə çatdırıb.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov dəyişikliklərlə bağlı rəhbərlik etdiyi komitənin rəyini açıqladıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib. Daha sonra komitə sədri Azər Əmiraslanov gündəliyin sonuncu məsələsi olan "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Bildirib ki, qanun layihəsi Vergi Məcəlləsində nəzərdə tutulan vergi güzəştlərinin gömrük güzəştləri ilə tamamlanmasını, başqa sözlə, dəstəklənməsini nəzərdə tutur. O, deputatların layihə ilə bağlı qeyd və təkliflərinin olmadığını diqqətə çatdırıb. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin bugünkü plenar iclası başa çatıb.

# Gürcüstanda müşahidə olunanların PƏRDƏARXASI

***Hakim "Gürcü Arzusu" partiyası tərəfindən 2028-ci ilə qədər Aİ-yə daxil olmaq üzrə danışıqların başlanması ilə bağlı Avropa İttifaqı ilə müzakirələri dayandırmaq qərarına gəlinməsi fonunda Gürcüstanda baş verənlər heç də təsadüfi sayılmır. Avropa İttifaqı ilə müzakirələri dayandırmaq qərarı barədə respublikanın baş naziri İrakli Kobaxidzenin brifinqdə bildirməsi də sözsüz ki, səbəbsiz deyil və görünür, belə bir qərar kimlərinsə "xoşuna" gəlməyib. Bunun fonunda da Gürcüstanda baş verənlərin haradan qaynaqlandığı bəlli olur və bütün olanları izlədikcə, məsələnin mahiyyəti daha açıq şəkildə aydın olur.***




## Gürcülər hökumətin qərarlarının arxasında dayansalar Gürcüstanı qarışdırmaq niyyətində olanlar istədiklərinə nail ola bilməzlər

"Bu gün biz 2028-ci ilə qədər danışıqların başlanması məsələsini gündəmə gətirməmək qərarına gəldik. Biz həmçinin 2028-ci ilə qədər Avropa İttifaqının bütün büdcə qrantlarından imtina edirik", deyə baş nazir Kobaxidzenin bildirməsi belə məlum olur ki, Avropanın da, Qərbin də planlarına uyğun gəlmirmiş. Məhz onların planlarına uyğun gəlmədiyinə görə də qonşu ölkədə qarışıqlıq və xaos yaratmaq üçün ciddi cəhdlər edirlər. Sözsüz ki, indi hər şey Gürcüstan vətəndaşlarından asılıdır. Beləki, əgər həqiqətən də Gürcüstan vətəndaşları hakim partiyanın, ələlxüsus da dövlətin, hökumətin yanında olsalar, dövlət başçılarının qərarının arxasında dayansalar, düşmən qüvvələr, bu Cənubi Qafqaz ölkəsini qarışdırmaq niyyətində olanlar istədiklərinə nail ola bilməzlər. Əgər hadisələr bunun əksinə cərəyan etsə, o zaman Gürcüstanda qarşıdurmaların, toqquşmaların olacağı qaçılmazdır.

Qərbin hələ də öz oyunlarından əl çəkmək istəmədiyi bir daha ortaya çıxır və özünü göstərir. Görünür, Gürcüstanla bağlı fikir qətidir və QHT maliyyələşdirmə mexanizmi vasitəsilə dövlət içərisində öz dayaqlarını qurması və öz gündəliyini qəbul etdirmək ön planda durur deyə, istənilən qarışıqlıq kimləri isə zərrə qədər də narahat etmir. Əslində, belə bir qarışıqlıq narahat etmir yox, kimlərə isə tamamilə rahatlıq verir desək daha doğru səslənər. Çünki vətəndaş qarşıdırması və hətta prosesin vətəndaş müharibəsi həddinə qədər çatdırılması niyyəti belə qətiyyən təkzib edilə bilməz. Ortada olan mənzərə onu deməyə əsas verir ki, Qərb artıq Gürcüstanda istədiyi ssenarini ortaya atıb və məhz QHT maliyyələşdirmə mexanizmi vasitəsilə istədiyinə nail olacağı qənaətindədir. İstənilən halda belə bir ssenarinin gürcülər üçün arzuolunmaz olduğu bir reallıqdır və ümid edirik ki, Gürcüstan vətəndaşları da bunun fərqindədirlər və ölkədə qarışıqlıq yaradan, vətəndaş qarşıdurmasına rəvac verən, hətta vətəndaş müharibəsinə gətirib çıxara bilən ssenariyə qarşı çıxarlar.

## Ümid edirik ki, qonşu ölkədə Qərbin hansısa manqurtlaşdırılmış dəstələrinin istədiklərini etmələrinə imkan verilməyəcək

Bilirik ki, Qərb üçün QHT-lər, LGBT və ifrat liberal sağçı düşərgələr yaratmaq, onları dəstəkləmək kimi ənənəvi bir ssenari var və bu ənənədən də belə görünür, qətiyyən əl çəkmək niyyəti yoxdur. Belə bir ssenarini bütün Cənubi Qafqaz ölkələrində tətbiq etmək niyyətindən də əl çəkmək kimi bir fikrin belə olmadığı da bir daha öz təsdiqini tapır. Cənubi Qafqazın istənilən ölkəsinə belə ssenari ilə soxulmaq tendensiyası heç də bir kənara qoyulmur və hələ də eyni şəkildə cəmiyyət içərisinə soxularaq, manqurt dəstələr yaratmaq istəyi müşahidə edilir. Düzdür, məhz xalqın birliyi, həmrəyliyi, vətəndaşların dövlətin yanında olması, hökumətin qərarlarını müdafiə etməsi, dəstəkləməsi sayəsində onların Azərbaycanda belə cəhdləri olduqca uğursuz alındı, amma bəzi ölkələrdə görünür buna nail ola biləcəklərinə ümid edirlər. Biz isə ümid edirik ki, Qərbin belə çirkin niyyətinin, ölkədə qarışıqlıq yaratmaq, vətəndaş müharibəsi belə törətmək cəhdinin qarşısı gürcü xalqı tərəfindən alınacaq. Ümid edirik ki, qonşu ölkədə Qərbin hansısa manqurtlaşdırılmış dəstələrinin istədiklərini etmələrinə imkan verilməyəcək.

Əgər həqiqətən də Qərbin oyuncağı olmaqdan imtina edilsə, hansısa maliyyə mexanizmləri ilə QHT-lərin "ələ alınmasına" son qoyulsa, onların fəaliyyəti dayandırılsa, arzuolunmaz halların qarşısı alına bilər. Hər halda gürcülər başa düşməlidirlər ki, öz ölkəsinin taleyi və mənafeyi hakim partiya olan "Gürcü arzusu" üçün daha maraqlıdır və bu maraq heç də xaricdən ölkəyə burun soxanların maraqlırı ilə müqaisəyə belə gəlməz. Çünki "Gürcü arzusu" ölkənin suveren, müstəqil olması, asılı olmaması üçün çalışdığı halda, Qərb və onun maliyyələşdirdiyi QHT-lər bunun əksinə çalışırlar. Gürcüstanın hakim partiyası, ölkə başçısı ölkədə əmin-amanlığı, təhlükəsizliyi, sabitliyi, stabilliyi qorumağa çalışdığı halda, Qərb bunun əksinə çalışır və nəyin bahasına olur-olsun öz dayaqlarını qurmaq, öz gündəliyini qəbul etdirmək istəyir və buna görə də nə təhlükəsizlik, nə stabillik, nə əmin-amanlıq haqqında heç düşünmür də.

## Qərb QHT-lər vasitəsilə cəmiyyəti o qədər manqurtlaşdırıb ki, ən müqəddəs məqamlar barədə heç düşünülmür

Bilirik ki, indi Gürcüstan üçün həlli vacib olan məsələlər var. Hal-hazırda ölkənin ərazi bütövlüyü məsələsi bütün Gürcüstan cəmiyyətini, ölkə vətəndaşlarını daha sıx birləşdirməlidir. Məhz qonşu ölkənin də ərazi bütövlüyü həmin ölkə vətəndaşları üçün ən müqəddəs məsələ sayılmalıdır. Xüsusən də itirilmiş torpaqların geri qaytarılması məsələsi gündəmdə olmalı və hamını bir nəfər kimi maraqlandırmalı, bu maraq ətrafında da birləşdirməlidir. Eyni ilə Azərbaycanda olduğu kimi, Gürcüstanda da xalq həmrəylik, birlik nümayiş etdirməlidir və dəyərlərinin müdafiəsinə qalxmalı, itirilmiş torpaqlarını geri qaytarmağı ən vacib məsələ hesab etməlidir. Amma görünən tamamilə fərqli mənzərədir. Görünən odur ki, yuxarıda sadalanan məsələlər, yəni, itirilmiş torpaqların geri qaytarılması, ölkənin ərazi bütövlüyü məsələsi heç müzakirə mövzusu belə deyil. Daha dəqiq desək, Qərb QHT-lər vasitəsilə cəmiyyəti o qədər manqurtlaşdırıb ki, ən müqəddəs məqamlar barədə heç düşünülmür də.

İstənilən bir ölkədə, ələlxüsus da Cənubi Qafqaz ölkələrində xalqın ideoloji əsasda milli kimliyinin, qürurunun, adət-ənənələrinin arxa plana keçirilməsi hər zaman Qərbin ən çox nail olmağa çalışdığı məsələ olub. Cənubi Qafqaza soxulmaq və öz dayaqlarını qurmaq, öz gündəliyini qəbul etdirmək üçün ən çirkin yollara əl atanlar daha çox LGBT kimi iyrənc bir ssenarini reallaşdırmağa çalışırlar və bir şeyi başa düşə bilmirlər ki, region ölkələri üçün qəbul olunan dəyərlər və qəbul olunmayan məsələlər var, hansıki onları ortaya atmaqla çox şeyə nail ola bilməzlər. Ola bilsin ki, Qərb QHT-lər vasitəsilə hərhansı bir cəmiyyəti həddindən artıq dərəcədə manqurtlaşdıraraq, ən müqəddəs məqamları unutduracağına ümid edir, amma Cənubi Qafqazda buna nail olmağın mümkünsüzlüyünü başa düşə bilmir. Başa düşə bilmir ki, məhz LGBT kimi Qərbin sırımaq istədiyi dırnaqarası "dəyərlər" region ölkələrində qətiyyən qəbul edilməyəcək və indi qurduqları arzuları, nəyə isə müvəqqəti olaraq etdikləti ümidləri də puça çıxacaq. Sadəcə, bir gün gec, bir gün tez məhz Qərbin LGBT kimi özünə məxsus dəyərləri onun özünə qalacaq və hətta başına çırpılacaq. Elə bu manqurtlaşdırılanlar özləri də həmin dırnaqarası "dəyərləri" onu təbliğ edənlərin özlərinə yaxın zamanda qaytaracaqlar.

## Bir xalqı öz oyunlarına alət etmək çox çirkin siyasətdir

Hər dəfə hansısa ölkənin işlərinə burnunu soxan Qərb belə çıxır ki, bundan nə bezməyib, nə usanmayıb və nə də utanmaq kimi də bir fikir belə yoxdur. Soruşmaq ayıb olmasın, niyə hansısa bir ölkənin daxili işinə Qərb qarışmalıdır? Belə bir ixtiyar necə verilə bilər və bu ixtiyarı özündə görmək nə deməkdir? Axı baş verən hadisələr Gürcüstanın daxili işidir və kanar qüvvələr, eləcə də hansısa ölkələr bu prosesə necə müdaxilə edə bilərlər? Axı kənar qüvvələr də, ölkələr də demokratik əsaslarla keçirilmiş seçkilərin nəticələrinə hörmətlə yanaşmalıdırlar. Bir xalqın seçiminə hörmətsizlik etmək olmaz və bu şəkildə yanaşma gürcü xalqına ən böyük hörmətsizlik sayılır. Hər halda, seçim etməklə gürcülər öz iradələrini ifadə ediblər və buna qarşı çıxmaq nə Qərbin gözə soxmaq və bununla da lovğalanmaq istədiyi demokratiyaya uyğun deyil, nə onların sırımaq istədikləri azadlıqla, insan azadlığı və söz azadlığı ilə üst-üstə düşmür, nə də adi insani normalara da uyğun gəlmir. İndi məhz gürcü xalqını Qərbin və xüsusən də Makronun agenti sayılan, bir zamanlar Fransa vətəndaşı olan, həmin ölkənin Xarici İşlər Nazirliyinə çalışan prezident Zurabaşvili ilə üz-üzə qoymağa heç kimin haqqı çatmır və bir xalqı öz oyunlarına alət etmək çox çirkin siyasətdir.

## Azərbaycan regionda sabitliyə qarşı olan hansısa təhlükəni qəbul edə bilməz

Görünən odur ki, Ukraynanı müharibəyə sürükləyən Qərb, indi də Gürcüstanı belə bir vəziyyətə salmaq niyyətindədir. Hər halda gürcülər məhz ukraynalıların vəziyyətini yaxşı görürlər. Onların evsiz-eşiksiz qaldıqlarını, raket zərbələrinə məruz qaldıqlarını, böyük itgilər verdilərini görürlər. Qərbin, Avropanın deyil, elə məhz Ukraynanın şəhərlərinin də viran qaldığını müşahidə edirlər və bu müşahidələr onu deməyə əsas verir ki, həmin ssenarin baş tutmasına qətiyyən imkan verilməməlidir. Gürcü xalqı müdriklik nümayiş etdirməli, heç bir xarici qüvvənin əlində alət olmamalı, yenə də öz iradəsini ortaya qoyaraq öz seçiminin üstündə israrla dayanmalı, öz mövqeyini müdafiə etməli, öz dəyərlərinə sahib şıxmalı və kənar müdaxilələrə "yox" deməli, imkan verməməlidir. Buna heç imkan verməyəcəkləri də gözlənilləndir. İstənilən halda, Azərbaycan da məhz öz qonşusunun, Gürcüstanın yanındadır və qonşu ölkənin legitimhakimiyyətinin mövqeyini dəstəkləyir. Rəsmi Bakı qətiyyən Qərbin oyunlarının qonşu Gürcüstanda reallaşdırılmasını istəmir. Qərbin Gürcüstanı bu formada qeyri-sabitliyə sürükləməsi Azərbaycan üçün qətiyyən qəbul edilən deyil. Çünki bölgədə sabitlik, əmin-amanlıq, sülh yaratmaq təşəbbüsü ilə çıxış edən, buna nail olunması üçün əməli addımlar atan, bütün dünyada artıq söz sahibinə çevrilən Azərbaycan məhz ümumilikdə regionda sabitliyə hansısa təhlükənin belə olmasını qəbul edə bilməz...

***İnam Hacıyev***

*Belarus Respublikasının tochka.by saytının əməkdaşı İqor Rubanın Azərbaycanın gözəl təbiətə malik Kəlbəcər rayonundan hazırladığı reportajı təqdim edirik. Odlar Yurdu çoxsaylı dünya forumları keçirməklə və turistləri fəal şəkildə dəvət etməklə öz açıqlığını nümayiş etdirməyə çalışır. Ancaq bu sülh bir çox cəhətdən acıdır - o qədər də uzun olmayan bir tarixin dərin yaralarına görə. Noyabrın ortalarında Azərbaycan dünyanın ən böyük iqlim sammiti olan COP 29-a ev sahibliyi etdi. Forumda bir çox ölkələrin liderləri, diplomatlar, parlamentarilər, iş adamları iştirak ediblər. Sammit ərəfəsində ölkədə qonaqların maksimum rahatlığını təmin etmək üçün çox iş görüldü, çünki bunun iqlim diplomatiyasında dönüş nöqtəsi olacağı gözlənilirdi.*

# Kəlbəcər - itirilən və qaytarılan: Azərbaycan dağlarında yaşayanlar

Bakıda ictimai nəqliyyat üçün ayrılmış zolaqlar və bir çox velosiped yolları yaranıb. Hörmətli qonaqlar Neftçilər prospekti boyunca dəniz sahili ilə qaçan idmançılara tamaşa edirlər. Tochka.by-nin jurnalisti özünü ən fəal günlərini Azərbaycanda tapıb. Ölkədə bir neçə gün istirahət elan edilib və bir çox paytaxt sakinləri tıxaclardan və vaxt məhdudiyyətlərindən uzaq olaraq şəhərdən kənara köçüblər. Biz də ekoloji cəhətdən təmiz marşrutla - dağlara getdik. Bu yol təsadüfən seçilməyib.

## İki od arasında səhər yeməyi

Hələ 15 il əvvəl Azərbaycandan Ömər aşırımına mümkün qədər yaxınlaşmaq imkanı olanda onu müşayiət edən şəxslərdən Anar Həbibov bu materialın müəllifinə söz vermişdi ki, öz vətənini - Kəlbəcərin Nadirxanlı kəndini göstərəcək.

O zaman Qarabağa bitişik beş rayondan biri olan bu rayon Ermənistanın nəzarətində idi. İtirilmiş vətən həsrətinin, ağrı-acısının nə qədər güclü olduğu o zaman göz qabağında idi. Səfərə hərtərəfli hazırlıq apardıq, aksesuarlar dəsti, müxtəlif yeməklər və xüsusən də avtomobil. Dağlara gedən yol həmişə xırda incəlikləri nəzərə almağı tələb edir. Səfər iştirakçıları keçidin yaxınlığında manqal yandırdılar, kabab bişirdilər və çay içməyi də unutmadılar. Bir-birinə yaxın iki ən yüksək nöqtənin - Azərbaycan və Ermənistan əsgərlərinin üz-üzə dayandığı mövqelərin arasında olduqlarını fərqinə varmadılar. Səhər süfrəsi açıla da, yeməyə əl vurmağa heç kim tələsmir. Bu etiraz və ya çağırış deyil. İnsanlar sadəcə olaraq qorxmaqdan yorulublar - onlar sülhə və öz torpaqlarında yaşamaq hüququna səs verirlər. Kəlbəcərlilər dağ havasının hər nəfəsi ilə doğma yurdlarına qayıdacaqları anı yaşaya bilməyəcəklərindən açıq-aşkar ümidsizlik yaşayıblar...

## Müharibələrin dayandırılması iqlimin qorunmasıdır

COP29 ideyasının özü Azərbaycanın iqlimin qorunmasına sadiqliyini vurğulayır. Forumun iclasında Belarus Prezidenti Aleksandr Lukaşenko da iştirak etdi. "Yaxın Şərqdəki müharibə, Ukraynadakı müharibə, Yəmənin cənubundakı müharibə. Ümumilikdə, dünyada 50-dən çox münaqişə var ki, bu da planetimizin iqliminə ciddi təsir göstərir. Deməli, vəziyyət yaxşılaşıb? Kim emissiyalar üçün ödəməyə başlayıb?" - dövlətimizin başçısı hazırda iqlim dəyişikliyinin əsas səbəblərini belə təsvir edib.

Hazırda Azərbaycan-Ermənistan münaqişəsinin aktiv fazası başa çatıb. Hər şey diplomatik müstəviyə keçib, baxmayaraq ki, bəzən sərhəddə hələ də atəş səsləri eşidilir. Ölkələr arasında hələlik sülh müqaviləsi yoxdur. Amma elə böyük yaralar var ki, onlar yalnız 30 il ərzində dərinləşib. Təəccüblü deyil ki, azərbaycanlılar Azərbaycanın ərazi bütövlüyünün bərpası prosesini başa çatdırdığına görə ölkə prezidenti İlham Əliyevin qətiyyətinə sonsuz minnətdardırlar.

## 2024-cü ildə








## Kəlbəcərə gedən yol

Bu dəfə dağ səyahətinə hazırlığı 15 il əvvəlkindən az ciddi hesab etmirik. Üç günlük dağa gedirdik. Yemək, paltar, əhval... Qeyd etmək lazımdır ki, hər istəyən Kəlbəcər rayonuna asanlıqla gedə bilməz. Qeydiyyat prosedurundan keçmək mütləqdir, xüsusilə qonaqlar. Artıq yerli sakinlər öz doğma torpaqlarına səfər etmək və ondan müəyyən tezlikdə istifadə etmək hüquqlarını təsdiqləyiblər. "Niva" sürətlə şütüyür, uzun müddət ilan kimi qıvrılan yoldan gəldiyimiz yeri seyr etdik. Hələlik yolda maşın sıxlığı yoxdur: ya xüsusi avadanlıq, ya texizat, ya da təhlükəsizlik qüvvələrini aparan maşınlar gözə dəymir.

## Ömər aşırımı

Bu yerdə tarix yazılıb, amma qədim deyil. Burada müharibənin ən qanlı əməliyyatlardan biri 1993-1994-cü illərdə baş verib. Keçid Ermənistan silahlı qüvvələri tərəfindən evlərini tərk etmək üçün 24 saata qədər vaxt verilən mülki şəxslər üçün keçilməz maneəyə çevrilib. İnsanlar evini tərk edərək, hər şeyini geridə qoyaraq, yazın əvvəlində qar və sıfırdan aşağı temperaturun olduğu 3260 m yüksəklikdəki dağ silsiləsini aşıb təhlükəsiz yerə çatmaq üçün qaçırdılar. O zaman mülki əhali arasında itkilərin qarşısını almaq mümkün deyildi. Və onların sayı minlərlə ölçülürdü.

Bundan əlavə, 1994-cü il hər iki tərəfdən çoxlu sayda hərbçinin həlak olması ilə yadda qaldı. 2024-cü ildə aşırım üzərində ağır buludlar əlavə təhlükə yaratmadı. Amma Murovdağdakı bu kiçik keçidin belə ağır xatirələr saxladığını dərk etmək mənə mənzərədən sakit zövq almağa imkan vermədi. Bununla belə, hər iki tərəfdəki serpantinlər, inanılmaz dağ vizual mənzərələri, səmanın və payız dağlarının füsunkar rəngləri insanın ruhunu oxşayır, insanda qəribə ab-hava yaradır. Zirvələr həmişə simvolikdir, buna görə də alpinistləri yalnız alpinistlər başa düşə bilər. Keçiddən eniş artıq nəfəs almağımıza imkan verirdi. Daha az gözəllik yox, daha çox inam var idi. Xətti keçmək həmişə vacibdir.

Qarşımıza çıxan ilk bulağın yanında dayandıq. Burada dağ bulaqlarının yanında dayanmaq adətdir; bu, zəruri bir ritual kimi qəbul edilir. Bundan təmiz su yoxdur, hər bulağın öz







dadı var və hər qurtum insane həyat və ümid verir ki, əvvəlki kimi, doğma bulaqlar həmişə mövcud olacaq. Yeri gəlmişkən, kəlbəcərlilər həmişə imkan daxilində əvvəlcədən hazırlanmış qabları doldurmağa və öz sularını Bakıya gətirməyə, səxavətlə ailə və dostları ilə bölüşməyə çalışırlar. Vətənin dadı özünəməxsusdur...

## Yeni Kəlbəcər

Kəlbəcərin müharibədən əvvəl necə olduğunu bilmirəm, amma burada 7 mindən çox insanın necə yaşadığını təsəvvür etmək çətindir. Ancaq Kəlbəcərin köhnə sakinləri evlərini asanlıqla tanıya bilirlər. Kəlbəcər inkişaf edir, yenidən qurulur. Şəhər dəniz səviyyəsindən təxminən 1600 m yüksəklikdə bərabər şəkildə səpələnib. Əvvəlki yaşayış məskənlərindən indiyə qalan yalnız yerli materiallardan tikilmiş divarların qalıqlarıdır. Ətrafda isə bitki örtüyü demək olar ki yoxdur, ermənilər ağacların hamısı kəsib... İndi şəhər yenidən qurulur. Müasir plan, yeni evlər, gələcəyə olan ümidlər. Mağazalar, məktəb, bağça tikilir. Bir çox cəhətdən bu, artıq sosial ekologiya uğrunda mübarizədir: yer boşalmasın, həyat qayıdıb nəsildən-nəslə davam etsin. Yerli Kəlbəcərlilər və onların nəsilləri öz doğma yurdlarına qayıtmaq üçün günlərini sayır. Orada hər şeyi yenidən yaratmaq lazım gələcək. Ancaq bu, az adamı düşündürür. Köhnə kəndlərin gələcəyi planlaşdırılır, memarlıq üsulları seçilir, insanlar geri qayıtmağı gözləyirlər.

## Ümumittifaq əhəmiyyətli "İstisu" sanatoriyası

Kəlbəcər rayonunun isti bulaqlarının şəfalı suları, xüsusən də 2200-2400 m hündürlükdə qayalardan fışqıran fəvvarələri qədim zamanlardan məlumdur. Tərkibinə və xüsusiyyətinə görə bu sular Çexiyanın Karlovı Varıdakı dünyaca məşhur bulaqlara bənzəyir və bəzi cəhətlərinə görə tamamilə unikaldır. Sovet dövründə burada hər il 50 minə qədər ziyarətçi qəbul edən İstisu sanatoriyası tikilmişdir. Onun mineral su qablaşdırma zavodu var idi. Sanatoriya da müharibədən sağ çıxa bilmədi. Amma Azərbaycanda kurortun müasir tələblərə uyğun bərpası barədə qərar qəbul edilib və orada işlər tam sürətlə gedir.

## Xudavəng monastırı

Başqa bir adla - Dadivank ilə tanınan bu monastır hələ də tarixçilər arasında fikir ayrılığına səbəb olaraq qalır: onun mənşəyi və müxtəlif dinlərə mənsub olması barədə mübahisə edirlər. Hazırda ona giriş təhlükəsizlik məsələlərinə görə ziyarətçilər üçün bağlıdır. Yer əlbəttə ki, diqqətəlayiqdir. Rəvayətə görə, məbəd bu yerlərdə ilk xristian missionerinin - Apostol Faddeyin dəfn olunduğu yerdə inşa edilib. 9-13-cü əsrlərdə tikilmiş Xudavəng bu gün də öz möhtəşəmliyini qoruyub saxlayır. Siyasi təlatümlər kilsələrin dini mənsubiyyətini tez-tez dəyişsə də, əsas məsələ insanlığın və həqiqi inancın qorunub saxlanmasıdır. Xudavəng məbədinin ətəyindəki dağıdılmış kənd də Azərbaycana qayıdıb. Monastırdan dərəyə baxanda xarabalıqları görməmək mümkün deyil.

## Kəlbəcər rayonu qayıdır

Tezliklə Kəlbəcərə, İstisuya və Kiçik Qafqazın digər təbii gözəlliklərinə gedən yol çoxlarının istifadəsinə veriləcək. Tezliklə Murovdağ altı ilə çəkilən 12 km uzunluğunda avtomobil tuneli istifadəyə veriləcək. 1 km-ə qədər bir neçə əlaqəli tunel artıq istismardadır. Beləliklə, hündürlük fərqi bərabərləşəcək və yolsuzluq avtomobillərinə ehtiyac aradan qalxacaq. Tarixlər fərqlidir, lakin onlar təxminidir. Bundan əlavə, avtoturizm üçün sərhədlər hələ də bağlıdır.

## Odlar yurdu qonaqları gözləyir

Azərbaycan turizm mərkəzi kimi ölkənin artan cəlbediciliyini hər cəhətdən nümayiş etdirir. Bakı uzun müddətdir ki, canlı beynəlxalq forumlar keçirir, müxtəlif səviyyələrdə qonaqpərvər potensialını ortaya qoyur. İnfrastruktur sürətlə uyğunlaşdırılır və müvafiq xidmətlərin inkişafına vəsait yatırılır.

Ölkə öz sülhsevərliyini sübut etməyə çalışır. COP29 uzun müddət dünya ictimaiyyəti tərəfindən ən diqqət çəkən və mübahisəli tədbir kimi yaddaşlarda qalacaq. Həm birinci, həm də ikinci Qarabağ müharibələrində insanlar həlak olub. Onlar hələ də böyük münaqişələr zamanı həyatlarını itirirlər. "Yaxşılaşdırmaq" şüarı çoxdan qətiyyətli addımlar və dinc təşəbbüslər tələb edir. Beləliklə, evə səyahət 30 il və ya daha çox davam etməsin. Bir çox insanın ömrü buna kifayət qətməyə bilər...

# Baydenin "ədalət"i

## Müttəfiqləri də ABŞ prezidentinin oğlunu əfv etmək qərarının düzgünlüyünə şübhə edirlər




ABŞ prezidenti Cozef Bayden oğlu Hunteri qanunsuz odlu silahların alınması və saxlanması və vergidən yayınma ilə bağlı iki cinayət işi üzrə əfv edib. Üstəlik, daha çox mübahisəli reputasiyaya malik olan Hunter, onu uzun müddət həbs cəzası ilə hədələyən hər iki ittiham üzrə təqsirli bilinmişdi. Nə onun əvvəlki vədləri, nə də partiya üzvlərinin ailə maraqlarını qanundan üstün tutmamaq çağırışları Ağ Ev rəhbərini dayandırmadı. "Mən bu həftə sonu bu qərarı verdim, onu daha da təxirə salmağın mənası yox idi. Ümid edirəm ki, amerikalılar ata və prezidentin niyə bu qərara gəldiklərini anlayacaqlar", - deyə Bayden bildirib. Bəlkə də amerikalılar onu başa düşdülər, lakin onların çoxu prezidentin qərarını təsdiqlədiklərini heç cür başa düşmürlər, axı indiyədək prezidentin belə qanunsuzluğa yol verəcəyini nə eşitmiş, nə də görmüşdülər.

Hətta demokratlara və xüsusilə Cozef Baydenə nisbətən sadiq olan mediada da əfv xəbəri böyük səs-küyə səbəb olub. Sol-liberal jurnalistlər xatırladıblar ki, Bayden bütün prezidentliyi dövründə ədalət məsələlərinə qarışmayacağına söz vermişdi. Hətta hüquqi proseslərin xoşagəlməz hal aldığı bu cinayəti törədən oğlunu heç əfv etməyəcəyinə qismən də olsun inanırdılar. İşlər məhkəmə yox, yekun hökmün çıxarılması mərhələsində idi. Üstəlik, odlu silahla bağlı işdə Hunterə qarşı təqsirli hökm çıxaran hakim deyil, münsiflər heyətidir. Yekun qərar dekabrın 12-də elan edilməli idi. Dörd gündən sonra vergi pozuntusu işi üzrə hökm çıxarılmalı idi. Hunter də bir sadə səbəbdən bəraət qazana bilməzdi: o, doqquz maddə üzrə ittihamları etiraf etmişdi.

Prezidentin əfv qərarı qəbul etməsi üçün əsasları çox zəif görünür. Bayden oğlunun milyonlarla müttəhimdən fərqli olaraq rəftar edildiyini iddia edir. İddialara görə, guya, Baydenin əleyhdarları ona siyasi ziyan vurmaq istəyirdilər. "Hunterin işinin faktlarını nəzərdən keçirən heç bir ağlabatan şəxs Hunterin sadəcə mənim oğlum olduğu üçün hədəf alındığından başqa bir nəticəyə gələ bilməz və bu, yanlışdır", - ABŞ prezidenti deyib. Ancaq nədənsə çoxlu sayda insan, o cümlədən münsiflər heyəti oğluna qarşı irəli sürülən ittihamları siyasi motivli hesab etməyib.

Əfv təkcə yuxarıda təsvir edilən iki işə deyil, həm də prinsipcə Hunterin cinayət təqibinə aid edilib. Bu düsturdan yalnız Cerald Ford (o, vitse-prezident idi və Riçard Niksonun istefasından sonra ölkə başçısı olmuşdu - müəllif) prezidentliyi dövründə bütün mümkün cinayətlərə görə əvvəlcədən bağışlanmış Niksona münasibətdə istifadə edirdi. Yəni əfv cəzanı çəkməzdən əvvəl verilib və son dərəcə nadir hal hesab edilir.

Ağ Ev rəhbəri daha əvvəl oğlunu 2014-cü ilin əvvəlindən 2024-cü il dekabrın 1-dək Hunter tərəfindən törədilə bilən hər hansı cinayətlərə görə məsuliyyətdən azad etmişdi. Əfv dövrünün bu qədər geniş olması, ehtimal ki, 2014-cü ildən bəri Hunter Baydenin rəsmi olaraq Ukraynanın Burisma Holdings enerji şirkətinin direktorlar şurasına daxil olması ilə bağlıdır. Hunter Bayden bir sıra qalmaqallarda iştirak edib. Onun narkotik aludəçiliyi və çox bərbad həyat tərzi məlumdur. Prezidentin oğlunun və onun noutbukunun elektron poçt hesabları sındırılıb. Orada tapılan materiallara inanıb-inanmamaq hər kəsin öz seçimidir, lakin ona güzəştə gedən materiallarla bağlı heç bir təkzib yox idi.

Davamlı qalmaqallar Hunteri hər şeyə icazə verilən korlanmış vəhşi kimi təsvir edir. Bunun səbəbi çox güman ki, faciəlidir: Baydenin dörd uşağından yalnız ikisi sağdır. 1972-ci ildə Baydenin birinci arvadı və qızı avtomobil qəzasında ölüb. Hunter və onun böyük qardaşı Beau xəsarət alsalar da sağ qalıblar. Beau uğurlu hüquqşünas olub, lakin 2015-ci ildə beyin şişindən ölüb. Baydenin ikinci arvadı Cillə Eşli adlı bir qızı var idi.

Lakin jurnalistlər qeyd edirlər ki, hətta prezidentlik müddətinin bitməsinə qədər əfv presedentlərinin olduğunu nəzərə alsaq (xüsusən, Bill Klinton səlahiyyət müddətinin bitməsinə bir neçə saat qalmış narkotik saxlama və paylama ittihamı ilə məhkum edilmiş 140 cinayətkarı əfv etməyə nail olub) , Baydenin işində ədalət işlərinə qarışmamağın siyasi karyerasının demək olar ki, bütün yarım əsri boyu onun prinsipi və şüarı olması narahatedicidir.

Donald Tramp Hunterin əfvini şərhsiz qoymayıb. O, sosial şəbəkələrdə yazıb ki, Kapitoliyə basqın etməkdə təqsirli bilinən amerikalılar Baydenin oğlundan daha çox əfvə layiqdirlər. Hunterin əfv olunmasını müəyyən mənada Trampa qarşı ittihamların götürülməsinə cavab hesab etmək olar. Lakin bu, Amerika prezidentinin hərəkətinin çirkinliyini inkar etmir.

Baydenin itirəcək heç nəsi yoxdur, onun artıq siyasi ambisiyaları yoxdur və qalan iki ayda o, qeyri-populyar qərarlar verə bilər. İndi Trampın tərəfdarlarını əfv etməsi də asan olacaq. Lakin onun vəzifəyə gəldikdən dərhal sonra bunu edəcəyi sirr deyil. Amma, ABŞ prezidentlərinin yol üstə olduqları anda belə ciddi səhvə yol vermək ənənəsi başadüşülən deyil.

***V.VƏLİYEV***

# Azərbaycan və İran XİN rəhbərləri regional təhlükəsizlik məsələlərini müzakirə ediblər

Dekabrın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasında iştirakı çərçivəsində İranın xarici işlər naziri Seyid Abbas Araqçi ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan və İran arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiyalar sahələri üzrə birgə layihələr, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Ceyhun Bayramov İƏT-in Xarici İşlər Nazirləri Şurasının 28-ci iclasının yüksək səviyyədə təşkilinə, habelə Təşkilata uğurlu sədrliyə görə İran tərəfini təbrik edib.

O, iki ölkə arasında tarixi qonşuluq, dostluq, mədəni bağlara əsaslanan əməkdaşlığın inkişafında ali və yüksək səviyyəli dialoqun, qarşılıqlı maraq kəsb edən məsələlərin müzakirəsinin vacibliyini qeyd edib.

Xüsusilə energetika və nəqliyyat dəhlizləri sahəsində Azərbaycan-İran əməkdaşlığının inkişafı istiqamətində bir sıra vacib təşəbbüslərin həyata keçirildiyi, əldə olunan razılıqların və onların icrasının əhəmiyyəti qeyd olunub. İran ərazisindən keçərək Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Şərqi Zəngəzur iqtisadi bölgəsini əlaqələndirəcək regional nəqliyyat və infrastruktur layihələrinin əhəmiyyəti diqqətə çatdırılıb.

Regional və beynəlxalq çoxtərəfli platformalar, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb. Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Qaçqınsız dünya quraq!

**MƏTANƏT**

***Dünyada qaçqınlıqdan, köçkünlükdən ağır dərd ola bilməz. Bunu soydaşlarımız bu həyatı yaşadığı üçün deyə bilirəm. Çünki uzun illər onların nələr çəkdiyini gözlərimizlə görmüş, acısını hər biri kimi yaşamışıq, ürəyimiz yanıb, parça-parça olub.***

Artıq dövlətimiz qaçqınlığa son qoyub. Ölkəmizin minlərlə qaçqınının hər biri öz ata-baba yurdunun azadlığını görüb, əksəriyyəti yurd-yuvasına qayıdıb. Böyük Qayıdış Proqramı davam edir. Yaxın gələcəklə onların hamısı doğma evlərinə qayıdacaq. Çünki daşı daş üstündə qalmayan Qarabağ və Şərqi Zəngəzurun əraziləri dövlətimiz tərəfindən yenidən qurulur.

1990-cı illərdən başlayaraq ermənilərin Azərbaycan torpaqlarında olan tamah dişi minlərlə soydaşımızın xoş gününü, səadətini didib-parçaladı. Onları doğma ata-baba yurdundan didərgin saldı. 126 yaşayış məntəqəsi zorla boşaldıldı. XX əsrin ən faciəli hadisələrindən biri törədildi - 6000 azərbaycanlının yaşadığı Xocalı şəhəri bir gecədə darmadağın edildi. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olundu, Qarabağ, ətraf rayonlardan, həmçinin Ermənistanla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerindən məhrum olaraq respublikanın 62 şəhər və rayonunda məskunlaşdı. Hərbi təcavüz nəticəsində 20 min azərbaycanlı həlak oldu, 100 min nəfər yaralandı, 50 min insan müxtəlif dərəcəli xəsarət aldı. 1 milyon 200 mindən çox qaçqın, məcburi köçkünü oldu Vətənimizin...

2020-ci ilin 44 günlük İkinci Vətən müharibəsinin Zəfərlə bitməsi yurdundan məcburən qovulan və 30 ildən artıq köçkün, qaçqın həyatı yaşayan soydaşlarımızın üzünü güldürdü. Qəlbləri fərəhlə döyündü, qürur hissi yaşadılar. Çünki artıq bu statusu daşımayacaqdılar. Onlar müzəffər Ali Baş Komandanımızın və əzəmətli milli ordumuzun əyilməz zabit və əsgərlərinin hünər meydanında göstərdiyi qəhrəmanlıqla öz atababa torpaqlarının yenidən sahibi olmuşdular.

2023-cü ilin sentyabr ayının 20-də birgünlük lokal xarakterli antiterror əməliyyatı ilə Xankəndi, Xocalı, Xocavənd kimi tarixi torpaqlarımız öz sahiblərinə qovuşdu. Mənfur erməninin Qarabağdan və Şərqi Zəngəzurdan birdəfəlik ayağı kəsildi.

30 ildən artıq qaçqınlıq həyatı yaşayan soydaşlarımızı yada saldıqca, onların 30 il yurdsuz, evsiz-eşiksiz yaşadıqlarını düşündükcə, qəlibimiz yenidən düşmənə qarşı sonsuz nifrətlə dolur.

Qələbə qazansaq da, Zəfər bizim olsa da, lakin qaçqınköçkünlərimizin 30 illik həyatını unutmaq olarmı? Bu torpaqlar uğrunda canından keçən şəhidlərimiz, sağlamlığından keçən qazilərimiz var. Onların hər birinin Qarabağımızın anası Azərbaycana qovuşmasında misilsiz qəhrəmanlığı olub.

Qaçqınlıq həyatı yaşayan soydaşlarımız tarixin bütün dövrlərində anılacaq. Çünki bizim qaçqınlıqda yaşlaşan gənclərimiz oldu. Qaçqınlıqda yurd həsrəti ilə dünyasını dəyişən ağbirçək, ağsaqqallarımız oldu. Evinin, həyətinin xəyalını qəlbinə gömən insanlar, uşaqlığı Qarabağda və Şərqi Zəngəzurda qalan, gəncliyi qaçqınlıqda keçən soydaşlarımız oldu.

Torpaqlarımız bu gün azaddır. Hər azad torpağımızda üçrəngli bayrağımız dalğalanır. Minlərlə insan artıq evindədir, qayıdıb, yaşayır. Digərləri isə qayıdacaq.

Lakin onların qaçqın, köçkün kimi 30 il ərzində nələr yaşadığı unudulmayacaq. Və qaçqınlıq, köçkünlüyü yaşayan xalq kimi bütün dünyada buna məcbur qalan insanlara böyük yanğı ilə yanaşırıq. Çünki onlar da bizim taleyimizin eynisini yaşayırlar.

Qoy bütün dünya ən yaxın gələcəkdə qaçqınsız bir dünya qurmaq qənaətinə gəlsin. Son qoyulsun qaçqınlığa. Bir parça torpağı heç kim sahibinə çox görməsin. Axı insanlar müqəddəs torpaqlarına yaxından bağlıdır. Onlar torpaqsız-yurdsuz özlərini heç yerdə xoşbəxt hiss etmirlər. Görəsən dünya bunu anlayırmı?

Yeri gəlmişkən, 2000-ci ilin 4 dekabrında BMT Baş Assambleyasının qərarına əsasən 20 iyun-Ümumdünya Qaçqınlar Günü kimi qeyd olunur. Nə yaxşı ki, bu qərar verilib. 4 dekabr və 20 iyunda dünya qaçqınları yada salınır. Düşünürəm ki, tək yada salmaqla ötməz, qaçqınsız bir dünya qurmaq da gələcəkdə bütün dünyanın gəldiyi ümumi qərar olmalıdır.

# “Qadınlar 29 yaşına çatanda panikaya düşməyə başlayırlar”



*AYDINLIQ GƏTİRİLDİ*

“Ana, həyat yoldaşı, işçi kimi bir çox rola sahib olan qadınlar, bu bir-birindən fərqli və bəzən toqquşan rolları, bir jonglyorun əlindəki topları fırlatdığı kimi, ən yaxşı şəkildə idarə etməyə çalışırlar, balanslı və heç birini yerə salmadan”. Bu sözləri SİA-ya açıqlamasında Ailə/Cütlük Terapevti və Uzman Psixoloq Səbinə Bayramova deyib. O bildirib ki, artıq yalnız universitetdən məzun olmaq kifayət etmir, magistr, doktorantura və s. ilə həyat keçir: ”Artan rəqabət səbəbindən qadınlar daha çox işləmək, daha çox təhsil almaq məcburiyyətində hiss edirlər. Bu dəfə, evlilik yaşı keçir, panikaya düşürlər və bunun ziddiyyətlərini yaşayırlar. New York Universiteti və Princeton Universitetində qadın psixologiyası üzərində aparılan araşdırmalar göstərir ki, adətən 29 yaşına çatanda qadınlar panikaya düşməyə başlayırlar. Xüsusilə ciddi bir münasibəti yoxdursa, təcili birini tapmalı, evlənməli və uşaq sahibi olmalıyam deyə düşünürlər. Nəticə etibarilə bu dövrdə yanlış evliliklər ola bilər. Doğru həyat yoldaşı olub-olmadığına baxmırlar, uşaq sahibi olum deyə baxırlar. Bu dünyanın hər yerində belədir və getdikcə boşanmaların artmasının səbəbi də budur. Müraciətlər arasında son bir ildir 30 yaşlarda, subay, uşaq sahibi olmaq istəyən çox insan gəlir, çünki eyni zamanda karyera qarışıqlığı yaşayırlar, karyeralarında müəyyən bir nöqtəyə çatmağa çalışarkən “uşaq dünyaya gətirməliyəm, bioloji saatım keçir” deyə panikaya düşürlər. Ailələrin də “nə zaman evlənirsən, bu qədər oxumaq kifayət etmədimi?” şəklindəki təzyiqləri insanları küncə sıxılmış hiss etdirir.

Uşağı olmayan işçi qadınların uşaq sahibi olmaq üçün bioloji saatla karyera planlaması arasında sıxışıb qalmaları, uşağın karyeralarına zərər verəcəyindən narahatlıqları, iş, həyat yoldaşı və uşaqlar arasında balansı qura bilməmə qorxusu, müasir dünyada işçi qadının ən böyük kabusudur. Bu rolların toqquşmasından yaranan problemlər nəticəsində tükənmişlik sindromu yaşayan və rollarına yetişə bilmədiklərindən şikayətlənən, günahkarlıq hissi keçirən qadınlar psixoloqların qapısını döyürlər.

İşçi qadınların ən çox çətinlik çəkdiyi məsələ ”iş, həyat yoldaşı, uşaq və mən” balansını yaratmaqdır. İş və şəxsi həyat balansını yaratmaq üçün birindən alıb digərinə qoymaq lazım deyil. Bu iki həyatı uzlaşdırmaq lazımdır. Şikayətlənib stresimizi artırmaq əvəzinə, plan qurub fəaliyyət göstərmək önəmlidir. Ailə və kariyera arasında balans yaratmaq mümkündür, amma bu, davamlı bir proses və diqqət tələb edir.



Özünü yaxşı tanımaq: Hər bir insanın prioritetləri və ehtiyacları fərqlidir. Ailə və kariyera arasında balans yaratmaq üçün əvvəlcə öz dəyərlərinizi, məqsədlərinizi və həyatınızdakı əhəmiyyətli prioritetləri müəyyənləşdirməlisiniz. Bu, nəyi daha çox önəmsədiyinizi və hansı sahədə nə qədər vaxt sərf etmək istədiyinizi anlamağa kömək edəcək.

Zaman idarəetməsi: Həm ailəyə, həm də kariyeraya eyni dərəcədə vaxt ayırmaq üçün effektiv zaman idarəetmə bacarıqlarına sahib olmaq vacibdir. Bu, hər iki sahədəki vəzifələrinizi düzgün prioritetləşdirmək və lazımsız diqqət dağıdıcı faktorlardan uzaq durmaqla mümkündür. Planlaşdırma və cədvəl tərtibi, gün ərzində daha məqsədli və səmərəli fəaliyyət göstərməyə imkan verəcək.

Məqsədli və reallığa uyğun gözləntilər: Ailəyə və kariyeraya olan tələbləri reallıqla uyğunlaşdırmaq vacibdir. Hər bir rolu yerinə yetirərkən, özünüzdən yüksək gözləntilər bəsləmək yerinə, mümkün olan ən yaxşı nəticəni əldə etməyə çalışmaq daha faydalıdır. Həm də zamanla hər iki sahədə də dəyişikliklər olacaq və bu dəyişikliklərə uyğunlaşmaq vacibdir.

Dəstək şəbəkəsi yaratmaq: Balans yaratmaq, yalnız öz üzərinizə düşən məsuliyyətlərə diqqət yetirmək deyil, həm də güvəndiyiniz insanlardan dəstək almaqla mümkündür. Ailəniz, dostlarınız və həmkarlarınızdan dəstək, həm işdə, həm də evdə rahatlıq və asanlıq təmin edə bilər.

Mənəvi və emosional rifah: Balansı qura bilmək üçün şəxsi rifahınıza da diqqət yetirməlisiniz. Həm fiziki, həm də emosional sağlamlığınızı qorumaq, stressi idarə etmək, asudə vaxtlarınızı keyfiyyətlə keçirmək balansı qurmada böyük rol oynayır. Əgər özünüzü yorğun və stresli hiss edirsinizsə, balansın pozulması mümkündür.

Sərhədlər qoymaq: Ailə və iş həyatını bir-birinə qarışdırmamaq üçün sərhədlər müəyyənləşdirmək vacibdir. Bu, iş saatları ilə şəxsi vaxtınızı fərqləndirmək, işdən sonra telefon və e-poçtları yoxlamamaq kimi kiçik, lakin əhəmiyyətli addımlar ola bilər.

Fleksibilik və uyğunlaşma: Həyatın müxtəlif mərhələlərində iş və ailə tələbləri dəyişə bilər. Belə halda, planlarınıza çevik yanaşaraq və dəyişikliklərə açıq olmağınız vacibdir. Bəzən bir sahəyə daha çox vaxt ayırmaq lazım gələ bilər, amma bu da müvəqqəti olmalıdır. Son olaraq, balansın nə vaxt və necə müəyyənləşdirilməsi hər kəsin öz şəxsi təcrübəsinə bağlıdır. Əsas olan, həm işdə, həm də ailədə səmərəli və məmnun olmaq üçün zaman zaman öz prioritetlərinizi yenidən nəzərdən keçirmək və dəyişən şəraitə uyğunlaşma qabiliyyətinizdir”.

”Azərbaycanda karyera quran qadının uğurlu ailəsi olması mümkündür, amma bu, yalnız fərdi yanaşma, dəstək şəbəkəsi və müvafiq balansın yaradılması ilə mümkündür. Ailənin anlayışı, dəstəyi və qadının məqsədlərinə uyğun qərarlar verməsi bu balansın qurulmasında əsas rol oynayır. Həm iş həyatında, həm də ailə həyatında uğur qazanmaq üçün qarşılıqlı hörmət, düzgün zaman idarəetməsi və şəxsən qadının hədəflərinə uyğunlaşma vacibdir.

Unutmayaq ki, hamımız supermen ola bilmərik, həm çox uğurlu bir işçi, həm çox yaxşı bir ana, həm çox yaxşı bir həyat yoldaşı, həm də çox yaxşı bir övlad olmaq mümkün deyil, hər şeydə çox yaxşı və ən yaxşı ola bilməzsiniz. Hər kəsin bir limiti var, həm psixoloji, həm də fizioloji. Başqalarının istəklərinə görə davransanız, öz ehtiyaclarınızı unudarsınız. Qadınların bir az da öz ehtiyaclarına qulaq verməlri lazımdır” - deyə o, əlavə edib.

**Söylü Ağazadə**



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# Qərb Ermənistan üçün sülh qapısını bağlayır

***Qərb Cənubi Qafqazda yeni çaxnaşma planını artıq işə salıb. Bu gün Gürcüstanda baş verənlər bu planın açıq hissəsidir. “Demokratiya ixracatçıları” Tbilisidəki xaosla yanaşı Ermənistan və Azərbaycan arasında da qanlı toqquşma üçün düyməni basmağa hazırlaşırlar. Belə görünür ki, yenə Nikol Paşinyan qan-qada izinə düşüb. 44 günlük müharibədə əzici məğlubiyyətdən dərs çıxarmayan bu siyasi marionet və siyasi şoumen, görünür Hindistandan, Fransadan, habelə yenicə Yunanıstandan aldığı silahlaların qoxusundan cəsarətlənib. Onu belə “cürətə” mindirən əsas məqam isə heç şübhəsiz ki, Yelisey Sarayından aldığı dəstək və təlimatlardır. Aydındır ki, bu gün N.Paşinyan Fransa prezidenti Emmanuel Makronun əlində alətə çevrilmiş fiqur kimi tanınır. Bu siyasi iradəsiz isə Ermənistanı uzun illərin acınacaqlı ələbaxan imicindən qurtarmaq, ölkəni ayağa qaldırmaq və regiondakı layihələrə qoşmaq əvəzinə, Qərbdən “yardım“ adı ilə ona göndərilən yüz milyonlarla dolların təsiri ilə bölgədə qanlı macəra axtarışındadır.***

Konstitusiya dəyişikliyinin 2027-ci ilə qədər uzadılması, erməni cəmiyyətində başqalarının torpaq və ərazi bütövlüyünə hörmət olunmasının zəruriliyi barədə ictimai rəyin formalaşdırılmaması, azacıq dara düşən kimi ənənəvi erməni streotipləri sayılan daşnak ideologiyasından çıxış etməsi- bütün bunlar N.Paşinyanı xarakterizə edən məqamlardır. Bu adam o dərəcədə iradəsizldir ki, kiçicik bir addımını belə öz siyasi ağaları ilə razılaşdırıb atır. Ağaları isə Brüsseldə, Parisdə, Berlində, Vaşinqtonda əyləşib Cənubi Qafqazı yenidən qan çəlləyinə çevirmək üçün planlar qururlar. Tbilisidəki son proseslər açıqca Qərbin “incə əl işi”dir. Xaos və “demokratiyanın” sintezi...

Əslində regionda güclənən Türkiyə-Azərbaycan faktoru Qərbdəkiləri, xüsusilə Fransanı açıq və aqressiv siyasət aparmağa sövq edir. Amma Yelisey Sarayı bu məsələdə tək deyil, yaxud bu təxribatları özbaşına planlaşdırmır. “Bu gün Azərbaycan əleyhinə təxribat siyasətində onunla bir cəbhədə dayanan xeyli qüvvə mövcuddur. Təsəvvür edin ki, Avropa İttifaqı “Sülh Fondu”nun dəstəyi ilə Ermənistanı “özünümüdafiə məqsədi ilə silahlandırmaq” fikrini açıq-aydın bəyan edib və artıq neçə ildir ki, bu işin “texniki tərəfləri” üçün Ermənistanda Aİ-nin “mülki missiyası” fəaliyyət göstərir. Üstəgəl bir müddət əvvəl ABŞ tərəfindən rəsmi İrəvan üçün ayrılan on milyonlarla dollar “humanitar yardım” payı da elan edildiyi kimi humanitar məqsədlər üçün ayrılmayıb. Xüsusilə Ermənistanı yeni hərbi təxribatlara sövq etmək üçün Aİ-nın belə canfəşanlığı işin daha dərin qaranlıq tərəflərinə də diqqət çəkir.

Dəhşətli vəziyyətə baxın, bütün günü “demokratiya”, “sülh” deyib bağıran Aİ, heç bir lüzum olmadığı halda, əlində Azərbaycanın Ermənistana hücum edəcəyinə dair bircə faktın mövcud olmadığı şəraitdə Ermənistanı silahlandırmaqla məşğuldur və bunu qanuniləşdirir də. Bu işdə Aİ və Fransanın yanında Tehrandan tutmuş Dehliyə qədər bir çox paytaxtlar da yer alırlar. Regionda sülhdən başqa nəyə desən maraqı olan istənilən qüvvə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin baş tutmaması üçün çalışırlar...

## “Gürcüstanda baş verənlər Qərbin Cənubi Qafqazda törədəcəyi dağıdıcı təxribatlar üçün ilk siqnaldır”

Digər vacib bir məqama diqqət edək. Niyə E.Makron israrla Ermənistanın “xaç atası” olmağa cəhd edir? Əlbəttə anlaşılandır ki, şəxsən E.Makronun dünyanın əksər ölkələrindən, hətta illərdir müstəmləkə altında saxladığı koloniyalardan açıq nifrətlə və təhqirlərlə qovulmasından sonra rəsmi Parisin Ermənistana aşkar şəkildə qahmar çıxması, heç də məqsədsiz və ya təmənnasız deyil. E.Makronun yarıtmaz hakimiyyəti ilə sürətlə dünyada nüfuzdan düşən Fransa, açıq görünür ki, Cənubi Qafqazda, Rusiyanın “qulağının dibində” məskən salmaq istəyir. Fransanın erməni sevdasının arxasında ilk növbədə onun Cənubi Qafqaz regionuna gəlməsi istəyi dayanır. Fransa Cənubi Qafqaz regionundakı mövcudluğunu məhz Ermənistanın hesabına təmin edir ki, bu da rəsmi Paris üçün həm iqtisadi, həm də siyasi baxımdan böyük dividentlər gətirə bilər. Fransadakılar erməniyə dəstək verəndə ilk növbədə gələcək planlarını düşünürlər. Heç şübhəsiz ki, E.Makron və komandası bu amilə də xüsusi önəm verirlər. Çünki Fransa bu yolla iqtisadi müstəqillikdən məhrum olan Ermənistan üzərində siyasi baxımdan olduğu kimi, iqtisadi baxımdan da ağalığa nail olacaq, bu üstünlükdən öz maraqlarının təminində gen-bol istifadə edəcək.

Əsrlərdir ki, Rusiya faktorunun birmənalı şəkildə üstünlük təşkil etdiyi, heç bir Avropa dövlətinin müdaxilə edə bilmədiyi Cənubi Qafqaz bölgəsi, bu gün Ermənistanın “dabanyalayan” siyasəti nəticəsində Fransa üçün açıq hala gəlib. Fransa Ermənistanı himayə etməklə, onun bütün cinayətlərinə göz yummaqla, bütün bu cinayətlərə şərik olmaqdadır. Mən düşünürəm ki, həm Fransa, həm ABŞ, həm də Aİ qarşıdakı müddətdə Cənubi Qafqazda daha dağıdıcı siyasət üçün aktiv fazaya keçəcəklər. Donald Trampın Ağ Evin sükanı arxasına keçməsi Qərbin planlarına təsir etməyəcək. Çünki burada da hər kəsin öz maraqları var və Avropa qitəsindəkilərin ABŞ-a hansısa güzəşti ağlabatan deyil.”

# Regionların sosial-iqtisadi inkişafı yeni mərhələdə

Azərbaycan regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına təkan vermişdir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-ə çatıb. Bu illərdə 9 hava limanı tikilib və yenidən qurulub. Laçın hava limanının tikintisi isə davam edir. Həmin müddətdə əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, çoxlu sayda körpü və tunellər, yollar istifadəyə verilib. İstehsal və sənaye müəssisələrinin çoxu bölgələrə aiddir. Hazırlanan növbəti dövlət proqramı da regionların inkişafının müasir tələblərə uyğunlaşdırılmasına hesablanmışdı.



## BÖLGƏDƏ RAHAT VƏ MÜASİR HƏYAT

Azad edilmiş torpaqların dirçəlişi və reinteqrasiyası ümumilikdə ölkənin iqtisadi potensialının artmasına geniş imkanlar vəd edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə buraya yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri xüsusi qeyd edilməlidir. Bölgədə fəaliyyət göstərən müəssisələr üçün əlverişli investisiya mühiti yaradılıb. İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından azad edilib. Regionda fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən də azad olunub. Sahibkarların maliyyəyə çıxış imkanlarının artırılması məqsədilə kreditlərə dövlət zəmanətinin verilməsi və faizlərin subsidiyalaşdırılması ilə bağlı elektron platforma hazırlanır. Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meylləri qeyri-resurs iqtisadiyyatının inkişafı üçün imkanlar yaradır. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzurun əhəmiyyətli potensialı var və bu, xarici investorların marağını cəlb edir. Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar. "Ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi bölgədə rahat və müasir həyat şəraitini təmin edir.

Bu gün işğaldan azad olunan Şuşa, Zəngilan, Ağdam kimi ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri görülür və müasir tələblərə uyğun olaraq qurulur. Eyni zamanda, Kəlbəcər kimi ucqar rayonlar da diqqətdən kənarda qalmayıb. Pilot layihələr kimi Kəlbəcər rayonunda arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərə lazımı şərait yaradılıb. Həmin sakinlər onlar öz təsərrüfatlarını yaradıb və işə başlayıblar. Laçında Güləbird su elektrik stansiyası istifadəyə verilib.





Şuşada "Xarıbülbül", "Qarabağ" otellərinin istifadəyə verilməsi, Füzuli Beynəlxalq Hava Limanının açılışı, yol infrastrukturunun qurulması və s. qısa bir zaman məsafəsində reallaşan layihələrdir ki, bütün bu və digər layihələr Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəricisidir. bütün bunlarla yanaşı, Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonasına çevriləcək. Müharibədən dörd il ötməsinə baxmayaraq, qətiyyətlə deyə bilərik ki, bu gün işğaldan azad edilmiş ərazilərimizdə misli görünməmiş bərpa və quruculuq işləri aparılır. Əlbəttə ki, işğaldan azad olunan ərazilərin bərpası böyük maliyyə vəsaiti və resursların səfərbərliyini tələb edən proses olsa da ölkəmizin iqtisadi gücü bütün bunlara imkan verir. Bildiyimiz kimi, "Ağıllı kənd" layihəsi müasir çağırışlara cavab verən yeni və beynəlxalq standartlara əsaslanan yeni bir modeldir. Layihə Zəngilanın 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərini əhatə edir.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURA APARAN YOLLAR

İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl görülən işlər çərçivəsində yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar əsasında yol infrastrukturunun təzələnməsi daha da sürətləndirilir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır.

İrimiqyaslı layihələr sırasında beynəlxalq hava limanları, "yaşıl enerji" zonasının yaradılması məqsədilə pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilməsi və s. ərazilərdə aparılan abadlıq quruculuq işləri Böyük Qayıdışın təntənəsidir. Suqovuşanda yol infrastruktu, abadlıq-quruculuq işləri də davam etdirilir. Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatı, Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı görülən işlərin miqyasının göstəricilərindəndir. Xüsusi olaraq qeyd etməliyik ki, işğaldan azad edilən ərazilərdə hərbi hissələrin açılması, ən müasir texnikalarla təchizatı Azərbaycanın hərbi təhlükəsizliyinin xüsusi diqqətdə saxlanılmasının göstəricisidir. Suqovuşanda açılışı olan hərbi hissənin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqəsi, qazanxanalar, mağaza, 174 nəfərlik yeməkxana binası yaradılıb.

Onu da bildirək ki, Suqovuşanda Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməli qoyulub. Suqovuşan qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binası təmir olunur. Əlbəttə ki, bu və ya digər irimiqyaslı lahiyələrə start verilməsi işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasının göstəricisidir.

## HƏR BÖLGƏDƏ YENİ İNKİŞAF MƏRHƏLƏSİ

Əlbəttə ki, abadlıq-quruculuq işləri təkcə işğaldan azad olunan ərazilərdə deyil, həmçinin Azərbaycanın digər bölgələrində də sürətlə reallaşır. Quba da bu sırada olan məkanlardandır. Belə ki, 2020-ci ildən etibarən rayonun Qonaqkənd qəsəbəsində kompleks abadlıq və quruculuq işləri həyata keçirilib. Qəsəbədə Ümummilli Lider Heydər Əliyevin abidəsinin ətrafında yeni park salınıb. Həmçinin qəsəbə Mədəniyyət Evinin istifadəyə yararsız, qəzalı vəziyyətdə olan binası sökülərək əvəzində yenisi inşa olunub. Quba-Qonaqkənd avtomobil yolu çəkilib. Prezident İlham Əliyev Quba-Qonaqkənd avtomobil yolunun açılışını edib. 46 kilometrlik Quba-Qonaqkənd avtomobil yolunun istismara verilməsi ilə 68 min nəfərin rahat gediş-gəlişi təmin olunur. Bu yol uzun illər əsaslı təmir olunmadığı üçün hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Bu isə yolda nəqliyyatın hərəkətini çətinləşdirirdi. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Kəndin əsas problemi yol problemi idi. Doğrudan da bu yolun çəkilməsi hesab edirəm ki, tarixi hadisə sayıla bilər". Dövlət başçısı bildirib ki, Quba rayonunda əhəmiyyət baxımından bir Xınalıq yoludur, bir də Qonaqkənd yolu idi: "Xınalıq yolu da keçilməz bir yol idi, oraya da gedib çatmaq üçün saatlarla vaxt lazım idi və qış aylarında, ümumiyyətlə, təcrid vəziyyətində idi... Nəhayət biz buna nail olduq". Quba-Qonaqkənd yolunun yenidən qurulması həm də əhalinin tədarük etdiyi kənd təsərrüfatı məhsullarını, meyvətərəvəzi qısa vaxtda istədikləri ünvana çatdırmağa imkan yaradır, həmçinin turizm imkanlarını daha da genişləndirir.

Qubanın Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəb də burada görüdən işlərin nümunəsidir. Təhsil müəssisəsində müasir standartlara cavab verən yeni məktəbin inşası keyfiyyətli və bərabərhüquqlu təhsil imkanının yaradılması deməkdir. Müasir infrastruktur tədrisin keyfiyyətinə birbaşa müsbət təsir göstərən amillərdəndir.

"Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışı "ABAD"çıların qablaşdırma vasitələrinə olan tələbatı ödəmək, eləcə də, kiçik və mikro sahibkarların ehtiyacları qarşılamaq baxımından əhəmiyyətlidir.

Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərinin aparılması da görülən işlərin məntiqi davamıdır. Yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra obyektin bazasında Quba İstirahət, İdman, Təlim və Tədris Kompleksi yaradılıb. Burada istirahət, idman, təlim və tədris bir məkanda cəmləşib. Həmçinin bu cür komplekslərin yaradılması regionlarda əmək bazarına yeni iştirakçıların daxil olmasına ciddi təkan verir. Bu o deməkdir ki, artıq Qubada insanların rahat yaşayışı təmin olunub. Bu onu bir daha təsdiqləyir ki, bütün layihələr uğurla reallaşır.

Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Bu gün həqiqətən də Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir.

***Zümrüd BAYRAMOVA***

# "Gürcü xalqı regiona uyğun olan mövqe sərgiləyir"

"Gürcüstanda hazırki proseslərin baş verəcəyini öncədən proqnozlaşdırmışdıq. Hətta Qərb siyasi dairələrinin bəzi təmsilçiləri oktyabrda parlament seçkilərindən öncə açıq şəkildə bildirirdilər ki, seçkilərə ciddi hazırlaşmaq lazımdır. Yəni, Qərb siyasi dairələri Gürcüstandakı seçkilərə ciddi hazırlaşmağın vacibliyini vurğulayırdı. Buna istinad edərək, sözsüz ki, Gürcüstanda iğtişaşların törədiləcəyi, inqilablara cəhd olunacağını bildirmişdik. Bütün bunlar bu gün özünü göstərir. Bundan öncə bir sıra post Sovet ölkələrində, elə Gürcüstanın özündə təşkil olunmuş rəngli inqilabların ssenarisi bu gün növbəti dəfə Gürcüstanda müşahidə olunur. Gürcüs-






tandakı etirazçılar çox ciddi koordinasiya olunan qruplardır və əsasən Qərbin maliyyəsi hesabına fəaliyyət göstərirlər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Mirbəşiroğlu deyib.

O bildirib ki, Qərbi narahat edən əsas məqam Gürcüstan parlamenti tərəfindən "Xarici agentlər haqqında" qanun qəbulundan sonra onun nəzarətində belə sosial baza, kütlə olmayacaq: "Bu kütlə sayəsində Gürcüstanın daxili siyasi həyatına müdaxilə olunurdu, qərarla təsir göstərildi. Müvafiq qanunun qəbul olunması faktiki olaraq Qərbin Gürcüstan üzərində nəzarətinin aradan qalxması demək idi. Buna görə də Qərb qanunu süngü ilə qarşıladı, qanunun qəbulundan sonra Gürcüstanın Avropa İttifaqına üzvlüyü yolunun bağlanacağı bildirildi. Qərb Gürcüstanla bütün əlaqələrə yenidən baxacağını göstərdi. ABŞ-ın Gürcüstanla strateji tərəfdaşlığı dayandırdığını bildirməsi bunu aydın şəkildə sübut edir. Buna görə də hazırki vəziyyətdə Gürcüstan hökumətinin Avropa İttifaqına üzvlüklə bağlı mövqe sərgiləməsi əslində Qərbin bir neçə ay öncə sərgiləmiş olduğu mövqelərə adekvat reaksiya idi.

Əslində burada Qərb üçün narahatlıq doğuran məqam yoxdur. Gürcüstan hökuməti 2028-ci ilə qədər prosesin davam edəcəyini bildirir. Rəngli inqilab ssenarisi digər post Sovet ölkələrində bundan öncə müşahidə olunub. Bu gün də eyni proses Gürcüstanda tətbiq olunur. Bu zaman Qərb cəmiyyətin tam təsiri altında olan sosial qruplarını aktiv istifadə edir. Bu isə həm Gürcüstan, həm də region üçün təhlükə yaradır. Çünki Qərb siyasi dairələri özləri üçün loyal olan siyasi rejimlərin formalaşmasında maraqlıdır. Belə rejimlər formalaşdıqdan sonra isə onlardan geosiyasi rəqiblərinə qarşı müqavimət tələb edir. Bu isə bütün Cənubi Qafqaz regionunda gərginliyə səbəb ola bilər. Qərbin əsas məqsədi də məhz budur. Bu gün Gürcüstanda Qərbin təsiri altında hakimiyyət böhranı yaşanır. Çox nadir hallarda rast gəlinir ki, ölkə prezidenti etirazçıları həvəsləndirsin. Gürcü xalqı regiona uyğun olan mövqe sərgiləyir, Gürcüstanın digər dövlətlərlə əlaqələrinin inkişafının vacibliyi bildirilir".

**Səbinə Hüseynli**

# Yol-nəqliyyat hadisələrinin əsl səbəbi nədir?

*EKSPERT İZAH ETDİ*

"Yol-nəqliyyat hadisələrinin səbəbi nə sürət, nə də yolların dar olmasıdır". Bunu SİA-ya açıqlamasında yol hərəkatı üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov deyib. O bildirib ki, sürət rejimini pozmaq yol-nəqliyyat hadisələrinin səbəbi deyil, nəticəsidir: "Ona görə pozulur ki, sürət rejimini pozanın sürət haqqında təsəvvürü yoxdur.

Bizdə yol hərəkəti təhlükəsizliyinə dair dövlət proqramı var idi. 2018-ci ildə qəbul olunmuşdu, 5 illik proqram idi. İcra olunmadı. Bu proqramda hər şey, bütün səbəblər göstərilmişdi. Bu səbəblərdən biri də sürücü hazırlığı prosedurundakı səhvlərdir, boşluqlardır. Avtomobil elə bir texnikadır ki, onu təhlükəsiz idarə etmək üçün gərək lazımi səviyyədə sürücü hazırlansın. Sürücülük məktəbi oxumalı, təlim keçilməlidir, daha sonra da obyektiv imtahan vermək lazımdır. Bu prosedurları keçməyən adam təbii ki, peşəkar deyil. Sadəcə iki şey, sükanı fırlamağı, bir də pedalları basmağı bilir. Elə sanır ki, avtomobil at kimidir. Onun təsəvvürü yoxdur, problem buradan qaynaqlanır. Qeyri-peşəkarlıq isə onun günahı deyil. Sürücünü hazırlamaq lazımdır, sistem olmalıdır. Adam






sistemi keçməmiş özünə sürücü olmağı rəva bilməməlidir. Sistem də onu yola buraxmamalıdır".

"Yenə də çoxlu səbəblər var. Qaranlıq küçələr səbəblərdən biridir. Ona görə də, qəzalar çox olur. Avtomobil parkının köhnəliyi səbəblərdəndir. Köhnə avtomobildə xırda bir problem yarandıqda idarəetmə itirilir. Xırda qəza olan kimi həmin avtomobil sıradan çıxır, içindəkilərə çox ağır xəsarətlər verir, ölüm baş verir. İnfrastruktur da digər məsələlərdəndir. Məsələn, nişan, xətt görünmür, svetoforun işıqları bəzən görünmür və sair. O cümlədən, yoldakı qüsurlar həm də çalalardır. Əsas səbəblərə yanaşmalardakı səhvləri göstərə bilərik. Qısası bu dəqiqə Azərbaycanın yol-nəqliyyat təhlükəsizliyi ilə bağlı ciddi işlər görülmür. Görülən işlər sadəcə cari, yola verilməyə yönəlmiş işlərdir. Köhnə işlər də dövlət proqramında var idi. Dünyanın təcrübədən keçirdiyi işlər idi. Bunlar hamısı kağız üzərində qaldı. Onları icra etmək lazımdır. Yol hərəkəti təhlükəsizliyinə yanaşmada təfəkkürdə tamam yeni yanaşma formalaşmalıdır.

Yeni təfəkkür tərzi yaranmalıdır. Cəmiyyətə təhlükəsiz davranış tərzi aşılanmalıdır ki, yol, nəqliyyat nədir, nə olar, nə olmaz. Yol-nəqliyyat hadisəsi baş verəndə kimin günahkar olduğu düşünülməməlidir. Tez araşdırılmalıdır ki, niyə və nə üçün burada baş verdi? Ora yönəlik problem varsa, o aradan qaldırılmalıdır. Tipikdirsə, ümumiləşdirmədən sonra başqa yerlərdə həmin problem varsa, orada da aradan qaldırılmalıdır" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**



Elçin Bayramlı

# Uşaqlarınıza tərbiyə verməyin...

## ...onsuz da sizə oxşayacaqlar

Uşaqların düzgün tərbiyə olunması məsələsi daim müzakirə olunur. Təəssüf ki, cəmiyyətimizdə bu sahədəki problem düzəlmək əvəzinə getdikcə pisləşir. Valideynlər indiki uşaqların çətin tərbiyə olunan olduğunu və ipə-sapa yatmadığını deyir. Bir çox psixoloqlar uşaqları qəti şəkildə cəzalandırmamağı təklif edir, digər hissəsi isə tənbeh, cəza olmadan əksər uşaqların tərbiyəyə yiyələnə bilmədiyini deyir. Bəs reallıq necədir? Əvvəlcədən deyim ki, burada qızıl orta tapılmalıdır.

Uşaqları döymək, fiziki cəza vermək, qeyri-sağlam tərbiyə metodudur. Ümumiyyətlə, tərbiyə metodu deyil. Yəni bu, əvvəldən tərbiyə verilməməsinin açıq göstəricisidir. Uşaq tərbiyəsi anadan olan kimi başlayır. Valideyn onu normal psixologiyada, normal tərbiyə sistemində böyütməlidir, hər şeyi izah edib, başa salmalıdır ki, sonradan fiziki təzyiqə ehtiyac qalmasın. Ərköyün böyüdülən, nazı iklə çox oynanan uşaqlar sonradan böyük probleme çevrilir.

Çox təəssüf ki, son dövrlərdə uşaqları ərköyün böyüdürük. Nə istəsə o saat təşkil edib alırıq və bir dəfə də bunu etməyəndə artıq uşaqda isterika yaranır, ciddi müqavimət göstərir, ağlayır, müxtəlif oyunlar çıxarır. Artıq bundan sonra valideynin onu düzəltmək üçün imkanı qalmır, əl atır fiziki təzyiq göstərməyə. Ona görə də, sistem əvvəlcədən düzgün qurulmalıdır. Bir çox ölkələrdə buna görə uşaqlara fiziki və ya psixoloji zərərə vuran valideynlər cəzalandırılır, hətta bəzi ölkələrdə uşaq valideyndən alınır, dövlət himayəsinə götürülür, internat məktəblərinə yerləşdirilir.

Artıq belə çıxır ki, bizdə də bununla bağlı xüsusi bir qərara və qanuna ehtiyac olacaq ki, valideynlərin məsuliyyəti artsın. Vaxtında ərköyün böyüdülən, tərbiyə verilməyən uşaqlar böyüyəndə cəmiyyət üçün çox ciddi problemlər yaradır. Onlar psixologiyası pozulmuş, aqressiv, narsist və eqoist uşaqlar olur. Gələcəkdə cinayətkarlığa meyilli olur, başqalarına qarşı fiziki təzyiqə meyilli olur, öz ailəsinə də, dostlarına da belə davranır ümumiyyətlə yekun nəticədə bütün cəmiyyətə zərər vurur. Bu baxımdan, valideynlər bu məsələlərdə diqqətli olmalıdırlar.

Uşaq düzgün tərbiyə olunmalıdır, uşaq ailənin mərkəzinə qoyulmamalıdır ki, ağzından nə çıxdı o saat alınsın, hazır olsun ki, sabah da birini etməyəndə uşaq belə oyunlar çıxartsın, valideyn də onu vurmağa məcbur olsun. Yəni bu artıq vaxtında görülməyən tədbirlərin, vaxtında yerinə yetirilməyən borcların hazır nəticəsidir. Bundan sonra bunu heç cür düzəltmək olmur. Ona görə normal qaydada izah olunmalıdır vəziyyət, başa salınmalıdır, nəyə görə bu qadağan olunur və yaxud nəyə görə bu ona alınmır? Normal qaydada uşaq əvvəldən nə formada tərbiyə olunursa o formada da davam edir. Yəni problem sırf valideynlərin məsuliyyətsizliyindən savadsızlığından, uşaq psixologiyasından heç bir məlumatı olmamasından bağlıdır.

Deməli, məsələyə çox sadə yanaşmaq lazımdır. Uşaqlar tam olaraq eqoist də böyüdülməməlidir eyni zamanda fiziki olaraq zərər vurmamaq lazımdır. Bunların ortasında elə bir qızıl orta tapılmalıdır ki, vaxtında görülən tədbirlər nəticəsində heç buna ehtiyac yaranmasın. Uşaq sağlam, düzgün mühitdə, tərbiyəvi mühitdə böyüsün və belə hallar yaranmasın. Sonradan yaranan problemlərin nəticəsi ilə uğraşmaqdansa, əvvəldən bu məsələni düzgün həll etmək lazımdır. Əvvəllər belə yanaşılırdı, son dövrlərdə həddindən artıq ərköyün uşaqlar böyüdülür. Bu isə bütün ailə üçün də, cəmiyyət üçün də, uşağın özünün psixologiyası üçün də çox ciddi problemdir və burada yeganə günahkar valideynlərdir- uşaqlara düzgün tərbiyə verməməkdə.

Normal valideyn uşağı uşaqlıqdan zəhmətə öyrəşdirməlidir, ona hər ağzından çıxanın anında hazır olmayacağını izah etməlidir, bəzi şeylərin zərərli olduğuna görə onun alınmayacağını başaa salmalıdır, neqativ hərəkətlər etməyin yolverilməz olduğunu deməlidir. Ən əsas uşağını düzgün tərbiyə etmək istəyən valideyn özü bunu öz nümunəsində göstərməlidir. Məşhur bir söz var- uşaqlarınıza tərbiyə verməyin, onsuz da sizə oxşayacaqlar. Bu sözlərdə həqiqət var və əslində deyilmir ki, uşağa tərbiyə verməyin. Deyirir ki, özünüz normal deyilsinizsə, uşağa tərbiyə verə bilməyəcəksiniz və o da sizə oxşayacaq. Bu gün ortadakı uşaqlar bizim inikamızdır, bizim əsərimizdir, bizim güzgümüzdür. Biz necəyiksə, uşaqlar da elə formalaşacaq. Əgər uşağımızın sağlam fərd kimi yetişməsini istəyiriksə, əvvəl özümüz sağlam olmalıyıq. Bunun başqa yolu yoxdur.

# Geyim kimliyimizdir...

***Geyim insanın mənəvi kimliyidir. Bu, bütün dövrlərdə belə olmuşdur. İstər kişi, istər qadın olsun, onun daxili aləmindən söhbət açan ilk olaraq geyimidir. Geyim dəbi, rəngi, uyğun seçilməsi, bədənin qüsurlarını üzə çıxarması və yaxud ört-basdır etməsi ilə diqqəti çəkir və bütün bunlar həmin geyimi daşıyan insan haqqında ilk təəssüratı formalaşdırır.***

Bütün dövrlərdə insanlar geyimə xüsusi önəm veriblər. Dəblə ayaqlaşmaqla yanaşı, özünə yaraşanı geyinmək kimi seçimlər də hər zaman aktual olmuşdur. Qadınlar, kişilər var ki, baxmayaraq ki, ilin dəbi nədir, rəngi nədir, öz seçimləri, özlərinə yaraşanı geyinməklə həmişə çox səliqəli və mədəni görünürlər.

Hə, mədənilikdən söz düşmüşkən, onu da vurğulayım ki, geyim həm də mədəniyyətdir. Özü də böyük mədəniyyətdir. İnsanın dünyagörüşünü, ailə tərbiyəsini, zövqünü ortalığa çıxaran amildir. Müasir dövrümüzdə geyim o qədər aktual mövzuya çevrilib ki, bu məsələyə işıq salmağı, görünənin görünməyən tərəflərinə aydınlıq gətirməyi bir jurnalist kimi özümə borc bildim.





## Geyimimiz xarakterimizdir

Tanımadığımız şəxslə ilkin olaraq geyiminə əsasən tanış oluruq. Kənardan bir baxışla bütün geyimlər onu daşıyan haqqında ilkin məlumatları verir. Bəzən küçədə kilolu bir qadınla rastlaşırsan. Baxırsan ki, geyindiyi paltar heç də bədən ölçülərinə uyğun gəlmir. Geyimi onu daha da kilolu göstərir və yaxud bədən cizgilərini o qədər qabardıb ki, qadın eybəcər bir formaya düşüb. İstər-istəməz düşünürsən ki, bəli, bu qadın qüsurlarını görməyi bacarmır. Hər bir qadının evdən çıxarkən ayna qarşısında dəfələrlə o tərəfə, bu tərəfə dönüb özünə baxmasını nəzərə alsaq, deməli, baxmaq kifayət deyil, gərək görə biləsən.

Bəzənsə normal kiloda olan qadınla rastlaşırıq. Geyiminin onu nə qədər kilolu göstərdiyinin şahidi oluruq. Deməli, seçim düzgün edilməmişdir. Geyimdə tək kilo deyil, yaşdan da söhbət açıb vurğulamaq istəyirəm ki, düzgün seçilməmiş geyimlər həm də qadın və kişiləri yaşlı göstərə bilir. Tanıdığımız, yaşını bildiyimiz qadınları bəzən elə geyimlərdə görürük ki, haradasa 40 yaşlı qadına 55-60 yaş vermək olur. Eləcə də 50 yaşlı qadın bəzən elə geyim seçir ki, bu geyimlə 35-40 yaşda görünür.

Bəzənsə düzgün seçilməyən geyimlərlə gülünc vəziyyətə düşə bilirik. Kənardakıların, ətrafımızdakıların hər birinin diqqətini üzərimizə çəkir, aralarında pıçıldaşmalara səbəb oluruq. Lakin baxırsan ki, heç geyimi ilə diqqətləri çəkən qadın və ya kişinin dünya-aləm vecinə belə deyil. Özünü o qədər sərbəst hiss edir ki, düşünürsən ki, o, ətrafdakılara geyimi ilə meydan oxuyur. Bax belə hallarda geyimimiz kimliyimizdir nəticəsinə gəlmək olur. Bəli, geyim bir xarakterdir. Tanımadığımız insanla ilk tanışlığımızdır. Tanış olmaq istəyənlərin isə artıq öz seçimidir: istəmək və istəməmək...



## Dəb bizi niyə dəyişməlidir?..

Həyatımıza tez-tez yeni dəblər daxil olur. Bu həm kişi, həm də qadın geyimlərində, onların tikilişində, qısa, uzunluğunda, rəngində özünü göstərir. Dəbi bir çaya bənzətsək, bu, o demək deyil ki, o sularla axıb gedək. Çünki bəli, dəb bizi öz sularında qərq etməyə qadirdir. O dərəcədə qadirdir ki, o sularda axarkən oradan xilas olmaq üçün əlimizi atıb yapışmağa heç nə tapa bilmirik. Müasir dövrümüzdə bütün yaşlardan olan əksər insanların, xüsusilə gənclərin geyimi kimi...

Maraqlıdır, indi geyim istehsal edən fabriklər artıq az parça ilə "dəbli" və çox yaxşı, sürətlə satılan geyimlər istehsal edirlər. Bir qarış köynək, bir qarış ətək, bir qarış şort, beldən bir qarış aşağı iri kəsikli şalvarlar, yırtmaçı yenə beldən bir qarış aşağıdan başlayan uzun ətəklər...

Bizlər nə edirik? Dəblə ayaqlaşmağa çalışırıq. Həmin geyimlərdən alıb evlərimizə gətirir, əynimizdə olan örtülü paltarları çıxarıb onları geyinir və utanmadan küçəyə çıxırıq. Universitetlərə yollanırıq, işə gedirik, rəfiqələrimizlə görüşə çıxırıq. Yənu bu geyimlərdə biz hər yerdəyik.

Maraqlıdır, nə üçün dəb bizi dəyişir? Nə üçün biz dəbi dəyişə bilmirik? Bu cür paltarlar alınmasa, mağazalarda asılı qalsa, yəqin ki, uğursuz dəblər kimi üzüqoylu fabriklərə qayıdar və istehsalçı da görər ki, işi nə qədər uğursuz alınıb, ikinci dəfə istehsal etdiklərinə diqqətlə yanaşar. Və yaxud da, bu cür geyimləri övladlarımıza alanda, onları bu geyimlərlə qapıdan bayıra yola salanda nə düşünürük görəsən? Düşünürük ki, müasirik, nə qədər dəblə geyinirik? Əsla. Bu nə müasirlik, nə də düşündüyümüz dəbdir. Bu, sadəcə baxmaq, açıq qalan nayihələri görməməkdir. Hansı ki, paltar bineyi-qədimdən örtmək məqsədilə icad edilmişdir. Bəs belə isə biz əynimizə paltar alırıq, yoxsa qapadılmalı olan hissələrimizi bayırda qoymağa pul veririk?

Söhbətimiz tək qızlara deyil, həm də oğlanlara aiddir. Onlar da həmin geniş kəsikli şalvarlardan, rəngbərəng-hər tayı bir rəngdə olan corablardan istifadə edirlər. Bəzən o qədər gen şalvar geyinirlər ki, qadına bənzəyirlər, bəzən də o qədər dar şalvar geyinirlər ki, özlərinə oxşamırlar.



Eləcə də digər yaşda olan xanımlar və kişilər də var ki, geyimləri ilə diqqəti cəlb edir, özlərindən yaşca kiçik olanlara pis nümunə olurlar. Həqiqətən də hər yaşın öz gözəlliyi var. O yaşa uyğun geyim də yerində olanda, insanı bir qədər də gözəlləşdirir. Lakin çox təəssüflər olsun ki, bəziləri üçün bu, heç də belə deyil. Dar şalvar və həddindən artıq qısa ətəklər, sinəsi aşırı dərəcədə açıq köynəklər bir qədər yaşı olan qadının düşünək ki, nə kimi qüsurlarını meydana çıxara bilər... Düşünək!

## Geyim mentalitetdir

Belə bir deyim var: insanı geyimi ilə qarşılayıb, ağlı ilə yola salarlar. Gözəl deyimdir. Lakin bu deyimin müasir dövrümüzlə əlaqəsi bir qədər zəifdir. Ona görə ki, indi bu deyimi bütün insanlara aid etmək olmaz. Çünki əksəriyyətimizin geyimi haqqımızda öz sözünü deyir. Qalır az sayda insan ki, onlar da bəli, geyimi ilə qarşılanıb, ağlı ilə yola salına bilər.

Geyim indiki cəmiyyətimizin gündəmdə olan ən aktual məsələlərindən biridir. Çünki əvvəlki illərin geyimləri ilə müasir geyimlər arasında böyük fərq var. Amma unutmamlı olduğumuz bir məsələ də var ki, geyim həm də mentalitetimizdir. Bir zamanların milli geyimləri ilə bugünkü geyimləri yan-yana qoyanda aralarındakı fərq artıq yerdən göyə qədər olan məsafə qədərdir. Biz nə etmişik? Həmin geyimləri qoruyub saxlamaq əvəzinə, onları "müasirləşdirə-müasirləşdirə" bugünkü vəziyyətə gətirib çıxarmışıq. Bəlkə də cəmiyyət arasında sorğu aparılsa, bunun günahını bir-birimizin üstünə atacağıq. Lakin məsələyə ədalətlə yanaşdıqda, geyimlərimizin bu hala düşməsinin səbəbkarları hər birimizik. Onları istehsal edənlərdən tutmuş alıcısı olan hər birimiz günahkarıq. Çünki bu elə bir məsələdir ki, ona müdaxilə etməyə, münasibət bildirməyə hər birimizin haqqı var.

Bəlkə də yazını oxuyanların əksəriyyəti məni köhnə fikirli, dəblə ayaqlaşmayan, müasirlikdən kənar adlandıracaqlar. Adlandırsınlar. Lakin cəmiyyətimizin əksər hissəsi də mənim dediklərimi təsdiqləyər ki, biz milli-mənəvi dəyərlərimizə uyğun geyinməli, mentalitetimizə hörmətlə yanaşmalıyıq.

Çox gözəl, həm zövqü, həm yaraşması, həm rəng seçimi ilə gözoxşayan geyimlər geyinən qadın və kişilərimiz var. Biz bu geyimlərdən nümunə götürməliyik. Kənardan təklif olunan geyimlərlə mentalitetimizə zərbə vurmamalıyıq. Gözlərimizi açıb cəmiyyətə daha yaxşı baxmalı, övladlarımızın nə geyindiklərinə diqqət etməliyik. Düşünməliyik ki, bu geyimlər bizim cəmiyyətimizi haraya aparır. Sabah geç olacaq, elə bu gün düşünmək lazımdır...

***Mətanət Məmmədova***

# Suriyada hərarət artdı

## Müxalifət PKK/YPG-nin xain oyununu pozdu, terror dəhlizinə ikiqat zərbə vurdu



***Suriyada müxalifət separatçı təşkilatın terror dəhlizi oyununun qarşısını aldı. Hələbdəki Küveyr Hərbi Hava Limanı və Minnığ Hava Limanını nəzarətə götürən Suriya Milli Ordusu PKK/YPG-nin Tel Rifat-Mənbic logistika xətti ilə Hələb-Rakka arasındakı əlaqəni kəsib. Suriyanın şimalında, xüsusilə İdlibdə baş verən qarşıdurmalardan sonra, rejimin nəzarətində olan Hələbi müxaliflərin ələ keçirməsi ilə Suriya bölgəsində başlayan hərəkat davam edir.***

Qeyd edək ki, separatçı terror təşkilatı PKK/YPG Suriya müxalifətinin Hələbə doğru irəliləməsindən və rejimin nəzarətindəki torpaqlardan geri çəkilməsindən istifadə edərək terror dəhlizi yaratmaq üçün hərəkətə keçib. PKK/YPG-nin Tel Rıfatla Suriyanın şimal-şərqi arasında terror dəhlizi yaratmaq məqsədi ilə ağır silahlar göndərərək Hələb bölgəsinə üstünlük təşkil etmək cəhdi Suriya Milli Ordusunun (SNA) başlatdığı “Azadlıq Şəfəqi” əməliyyatı ilə qarşısı alınıb. Əməliyyat nəticəsində PKK/YPG-nin rejim qüvvələrinin geri çəkilməsindən sonra ələ keçirdiyi Küveyr Hərbi Hava Limanını SMO nəzarətə götürüb. SNA döyüş təyyarələri və hava hücumundan müdafiə sistemlərinin yerləşdiyi Küveyr Hərbi Hava Limanını ələ keçirərkən PKK/YPG-nin Tel Rifat-Mənbic logistika xətti kəsilib.

SMO həmçinin Türkiyənin 13 kilometrliyində strateji əhəmiyyətli Minnığ hava limanını da ələ keçirib. Minnığ hava limanı 2016-cı ildə PKK/YPG tərəfindən ələ keçirilib. Rusiya və İran da hava limanından hərbi təchizatın paylanması üçün qərargah kimi istifadə ediblər. Əməliyyat çərçivəsində SMO Tel Rifat bölgəsindəki Tel İneb, Mezeret Hamad, Zoyan kəndləri və Zuyan təpəsini terrorçulardan nəzarətə götürüb.





Hələbdə baş verənlər Türkiyənin marağındadırmı?

İdlibdən yola düşən HTŞ (Heyet Təhrir əl-Şam) bir neçə saat ərzində Əsədin nəzarətində olduğu ehtimal edilən Hələbi ələ keçirib.

### Bəs, bu irəliləyiş Türkiyənin maraqlarına necə təsir edir?

1- HTŞ-nin Hələbi ələ keçirməsi Türkiyə sərhədinə yaxın olan İdlibdə müxalif qüvvələrin mövqelərini gücləndirə və bu səbəbdən Suriya rejiminə bağlı PKK/YPG kimi təşkilatların fəaliyyətini azalda bilər. Bu, Türkiyənin sərhəd təhlükəsizliyinə üstünlük verə bilər.

2- Hələbin strateji əhəmiyyəti xüsusilə Türkiyənin Suriyadakı əməliyyatlarında və Suriyadakı vətəndaş müharibəsində balansda mühüm rol oynaya bilər. Burada müxalifətin güclənməsi Türkiyənin bölgədəki təsirini artıra bilər.

3- Sünni əhalinin tərk etdiyi bölgələrdə Suriya rejiminin zəifləməsi qaçqınların geri qayıtması üçün daha əlverişli mühit yarada bilər və Türkiyədəki qaçqın yükünün yüngülləşməsinə kömək edə bilər.

4- Yaranan boşluq Türkiyənin Tel Rifat və Mənbic kimi bölgələrdə terror ünsürlərinə qarşı əməliyyatlarını asanlaşdıra bilər.

### Hələbi tutan kim?

Türkiyədə Suriyadakı son hadisələrlə bağlı müzakirələrdə ideoloji və məzhəbçi yanaşmalar üstünlük təşkil edir. Halbuki proksi savaşlarda aktyorların kimlikləri sadəcə maskadır. Onlar hərəkətlərin səbəblərini və nəticələrini anlamağa kömək etmir. Əksinə, ipini tutanların “fırıldaqçı” taktikasına xidmət edir, çaşqınlıq yaradırlar. Yaxşı, soruşsanız, “marksist-leninist” PKK-nın Suriya qolu olan YPG bu gün Suriyada Əsədi devirməyə çalışan “imperialist” ABŞ-ın quru qüvvələrini təşkil edir. Əsədin çətinliyə düşəndə köməyə çağırdığı ilk qüvvə də həmin YPG-dir. Türkiyəyə təzyiq etmək üçün vətəndaş müharibəsi başlayanda ölkənin şimalını rəsmən YPG-yə təhvil verən Dəməşq rəhbərliyinin özü deyildimi? Əsəd HTŞ Hələbə daxil olanda ilk olaraq YPG-yə zəng edib.

Müxalif vətəndaşlarını belə terrorçu elan edən Əsədin rəsmi olaraq ABŞ-ın maliyyələşdirdiyi, Dəməşqi devirmək istəyən YPG-ni terror təşkilatı adlandırmayıb, onları



“separatçı” kimi qələmə verməsi qəribə deyilmi?

HTŞ də fərqli deyil və 1988-ci ildə Əfqanıstanda Rusiyaya qarşı ABŞ tərəfindən dəstəklənən Əl-Qaidə mənşəli təşkilatdır. Daha sonra Əl-Qaidədən ayrılaraq başqa adlar götürdülər. İdlibi “Suriya Azadlıq Hökuməti” adı ilə idarə edən “İslamçı” HTŞ Əsədə qarşı döyüşür. Amma onun atdığı hər addım, o cümlədən son addımı ABŞ-ın məqsədinə xidmət edir, çünki bu, Əsəd tərəfdarlarına qarşıdır. Hətta ABŞ prezidenti Trampın “İŞİD-i Obamanın qurduğunu” etirafını sui-qəsd hesab edən “kül udmayanlara” başa salacaqsınız?

### 10 sualda Hələb tapmacası!

Əsəd rejimi tərəfindən “azad edilmiş bölgə” elan edilən Hələbin Suriyadakı müxalif qruplar tərəfindən qısa müddətdə ələ keçirilməsi böyük sürprizə səbəb olub. Suriyada müxalif qruplar tərəfindən sürətlə ələ keçirilməsi dünyanın diqqətini çəkib.

### 1-Bölgədəki vəziyyət necə dəyərləndirilir?

İdlib gərginliyi azaltma bölgəsində rejimin hücumları və Rusiya təyyarələrinin bombardmanları ilə üzləşməsi və bunun uzun müddətdir davam etməsi müxalifətin hərəkətə keçməsinə səbəb olub. Əməliyyatın Livan-İsrail atəşkəsindən dərhal sonra baş tutması da diqqət çəkir.

### 2- Əməliyyatın məqsədi nədir?

Əməliyyatı müxalif təşkilatların və İdlibdə qapalı qalan köçkünlərin rejim və Rusiyanın təcavüzünə reaksiyası kimi oxumaq olar. Hücumda strateji ağılın və kadr kəşfiyyatının olması çox açıqdır. Qəbilələrin müxalifətə verdiyi dəstək də əməliyyatı asanlaşdırdı.

### 3- Sahədə hansı qruplar var?

İdlibdə ondan çox rejim əleyhinə təşkilat var. Bunlardan ən tanınmışı “Həyat Təhrir əş-Şam” (HTŞ) əslində sünni-sələfi təşkilatıdır. 2017-ci ildə Nusra Cəbhəsi də daxil olmaqla bir çox təşkilatın birləşməsi ilə yaradılıb. Bundan başqa İdlibdə irili-xırdalı çoxlu müxalifət təşkilatları var. Fateh əl Mubin, Əhrari Şam və Ənsar Tövhid kimi önə çıxanları sadalamaq olar. Türkiyənin güclü dəstək verdiyi Suriya Milli Ordusu (Azad Suriya Ordusu) da əməliyyata dəstək verir.

Ardı Səh. 12

# Suriyada hərarət artdı

*Müxalifət PKK/YPG-nin xain oyununu pozdu, terror dəhlizinə ikiqat zərbə vurdu*









Əvvəli Səh. 11

## 4- Bundan sonra nə ola bilər?

Vəziyyət bir çox amillərdən asılı olacaq. Bunlardan ən önəmlisi rejim qüvvələrinin və Rusiyanın əks-hücuma keçib-keçməyəcəyidir. Eyni şəkildə Türkiyənin Suriyadakı proseslərə qarşı tutacağı mövqe də önəmlidir. Digər tərəfdən, 2025-ci ilin yanvarında ABŞ prezidentliyinə başlayacaq Trampın Yaxın Şərqdə izləyəcəyi siyasət birbaşa Suriyaya da təsir edəcək.

## 5- Türkiyə necə davranacaq?

Türkiyənin Suriya siyasətinin əsasını bu ölkənin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hörmət təşkil edir. Bununla belə, Türkiyə Suriyadan gələn terroru aradan qaldırmaq üçün sərhəddə bufer zona yaratmağa qərarlı görünür. Türkiyənin həssas olduğu digər məqam isə yeni qaçqın axınının qarşısının alınmasıdır. Ona görə də aydındır ki, Türkiyə yaxın günlərdə Suriyada bu kateqoriyadan olan hadisələrin qarşısını almaq üçün lazım bildiyi istənilən addımı, o cümlədən müdaxiləni ata bilər.

## 6- Terror təşkilatı PKK/PYD-nin bölgədəki fəaliyyəti nə dərəcədədir?

Suriya rejimi terrorla mübarizədə Türkiyə ilə paralel deyil. Rejim əsgərlərinin boşaldıqları ərazilərdə PKK/PYD ünsürlərini yerləşdirməsi Tel Rıfat və Mənbicdə mövqelərinin güclənməsinə səbəb olur. Bu, Türkiyənin qəbul edə biləcəyi bir şey deyil.

## 7- Müxalif qruplarla YPG terrorçuları arasında uzlaşma ola bilərmi?

Hazırda Suriya Milli Ordusu ilə YPG terrorçuları arasında qarşıdurma gedir. Sələfi təşkilatlarının İranyönlü qruplara qarşı mövqe tutduqlarını da bilirik. Odur ki, hazırkı şəraitdə rejimə müxalifət zəminində ortaq bir minimum olmadığı üçün müxalif qruplarla YPG/PKK-nın uzlaşması qeyri-mümkün görünür.

## 8- Rusiya, ABŞ və İsrailin münasibəti necədir?

Rusiyanın Suriya siyasəti öz qazanclarını qoruyub saxlamaq üzərində qurulub. ABŞ-ın bütövlükdə Yaxın Şərq və xüsusilə Suriya ilə bağlı siyasəti İsrailin təhlükəsizlik narahatlıqlarına əsaslanır. ABŞ üçün vacib olan İsrail üçün faktiki və ya potensial təhlükə yaradan dövlətlərin sabitliyinin pozulması və parçalanmasıdır. İsrail Suriyanı parçalamaq və onunla əməkdaşlıq edəcək bir terror təşkilatı yaratmağı hədəfləyir.

## 9- Rejim Hələbi geri ala bilərmi?

Suriya rejimi mahiyyətcə xalqa əsaslanmayan bir azlıq diktaturasıdır. Ərəb baharı zamanı rejimlə Suriya xalqı arasında uçurum daha da genişləndi. Ona görə də rejimin Hələbə yenidən hakim olmaq cəhdi ilk növbədə güclü ictimai müqavimətlə qarşılaşacaq.

## 10- Türkiyənin lehinə və əleyhinə olan vəziyyətlər hansılardır?

Türkiyə mülki əhalinin İdlibdə açıq həbsxana şəraitində sıxışdırılmasından mahiyyət etibarilə narazı idi. Hələbin müxalifətin ələ keçirməsinin gedənlərin və məcburi köçkünlərin geri qayıtmasını sürətləndirəcəyi də aydındır. Diplomatiya yolu ilə irəliləyiş əldə etmək Türkiyənin prioritetidir. Lakin Türkiyə milli maraqlar zərurət yaranarsa, hərbi müdaxilə variantından istifadə etməkdən çəkinməyəcək. Türkiyə terror ünsürlərinin xüsusilə Menbic bölgəsində birləşməsinə əsla icazə verməyəcək.

## Hələbdən sonra...

Ötən həftə Suriya ordusunun mövqelərinə qarşı güclü hücuma başlayan anti-hökumət qüvvələri ölkənin şimalında strateji əhəmiyyətli əraziləri - xüsusən də ikinci ən böyük şəhər olan Hələbin əhəmiyyətli hissəsini nəzarətə götürüb. Silahlıların uğurları rəsmi Dəməşqi və onun müttəfiqlərini - Moskva və Tehranı təəccübləndirib. Əsas suallar gərginliyin azaldılmasının təminatçılarından biri kimi Türkiyəyə ünvanlansa da, Tehran və Ankara ABŞ və İsrail arasında sui-qəsdin olduğunu iddia edirlər.

Noyabrın 27-də başlayan hökumət əleyhinə qüvvələrin gözlənilməz hücumunun miqyasını Suriya Müdafiə Nazirliyinin bəyanatı sübut edir. "Son bir neçə gün ərzində minlərlə əcnəbi terrorçunun, ağır silahların və çoxlu sayda pilotsuz təyyarələrin dəstəyi ilə "Cəbhət ən-Nusra" ilə əlaqəli silahlı terror təşkilatları əməliyyat keçirib. Hələb və İdlibdə bir neçə istiqamətdən kütləvi hücum olub. Nökumət qüvvələri onların irəliləyişini dayandırmaq üçün 100 km-dən çox şiddətlə döyüş aparır. Silahlı qüvvələrin onlarla əsgəri şəhid olub və yaralanıb", - deyə hərbi idarədən bildirilib.

Hücumun ilk mərhələsində silahlılar ölkənin şimalında, İdlib və Hələb əyalətlərində 500 kvadrat kilometr ərazini nəzarətə götürərək blitskrik həyata keçiriblər. Ən dramatik hadisələr Suriya müharibəsinin qızğın vaxtında bir neçə il döyüşlərə səhnə olan və böyük səylər bahasına Dəməşqin nəzarətinə keçən Suriyanın ikinci ən böyük şəhəri Hələbdə baş verib. Bazar gününə qədər hökumət əleyhinə qüvvələr bir neçə tərəfdən şəhərə soxula və ərazisinin bir hissəsini nəzarətə götürə bilib.

Hərbi hücumla yanaşı, silahlılar informasiya müharibəsində də təşəbbüsü ələ keçirərək, Suriya münaqişəsinin qaynar mərhələsində ən şiddətli döyüşlərin mərkəzində olan Hələbdəki orta əsrlərə aid qalanın sürətlə ələ keçirildiyi barədə xəbərlər yayıblar. Bunun ardınca hökumət əleyhinə qüvvələrin guya artıq şəhərin mərkəzi məhəllələrinə nəzarət etdiyi və hətta orada öz komendant saatı qoyduğu barədə məlumatlar ortaya çıxdı. Suriya Silahlı Qüvvələrinin komandanlığı buna cavab olaraq xəbərdarlıq edib ki, "terror təşkilatları vətəndaşları qorxutmaq məqsədi ilə öz platformalarında çaşdırıcı məlumatlar, xəbərlər və videolar dərc edirlər". Bu və ya digər şəkildə Hələbdəki vəziyyətin Suriya ordusu üçün ciddiliyini Dəməşqin rəsmi açıqlamaları da sübut etdi ki, bu da hərbçilərin "yenidən yerləşdirmə" adlandırdığı şəhərin bir hissəsindən nizami qoşunların geri çəkilməsini təsdiqləyir.

"Suriya silahlı qüvvələri dinc əhalinin və hərbçilərin həyatını xilas etmək üçün Hələbdə "Cəbhət ən-Nusra" qruplaşmasının hücumunu dəf edərkən qüvvələrini yenidən toplamaq məcburiyyətində qalıb. ", - Suriya Silahlı Qüvvələrinin baş komandanlığının mesajında deyilir. Xatırladaq ki, Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan 2020-ci ilin martında Suriya müxalifətinin əsas qalası sayılan İdlib əyalətində atəşkəs şərtləri barədə razılığa gəldikdən sonra həmin ərazidə vəziyyət sabitləşib. Xüsusilə, tərəflər orada birgə patrulların aparılması barədə razılığa gəliblər.

Suriyada hökumət əleyhinə qrupların sürətlə irəliləməsi yaraqlıların hərbi qisas almağa necə cəhd edə bildiyi və bunun arxasında hansı xarici qüvvələrin ola biləcəyi ilə bağlı müzakirələr gedir. Mediada yer alan bir sıra şərhlərdə nizami ordunun mövqelərinə hücumun Türkiyənin İdlib əyalətindəki məsuliyyət zonasından başladığını nəzərə alıb, baş verən hadisələrdə Ankaranın əlinin olduğu barədə məlumatlar dərc olunur. Türkiyənin xarici işlər naziri Hakan Fidan isə "Yeni Şafak" qəzetinə müsahibəsində ölkəsinin "Hələb münaqişəsinə qarışmadığını və Suriyadakı terror strukturunun dövlətə çevrilməsinə heç vaxt imkan verməyəcəyini" bildirib. "Bizim əsas məqsədimiz Suriyanın ərazi bütövlüyünü təmin etməkdir", - türkiyəli nazir əmin edib. "2017-ci ildən bəri İdlib deeskalasiya zonası ilə bağlı bir sıra sazişlər bağlanıb. Türkiyə tərəfdar çıxdığı müqavilələrin tələblərini vicdanla yerinə yetirir", - deyə ölkənin Xarici İşlər Nazirliyi qeyd edib.

Suriyadakı gərginlik Türkiyə diplomatiyasının rəhbəri ilə rusiyalı həmkarı Sergey Lavrov arasında telefon danışığı mövzusu olub. "Hər iki tərəf Hələb və İdlib əyalətlərində hərbi eskalasiya ilə bağlı vəziyyətin təhlükəli inkişafı ilə bağlı ciddi narahatlığını bildirib. Vəziyyəti sabitləşdirmək üçün birgə hərəkətlərin əlaqələndirilməsi zərurəti təsdiqləndi", - Rusiya Xarici İşlər Nazirliyindən bildirilib. Hakan Fidan əmindir ki, suriyalı terrorçular tamamilə ABŞ-dan asılıdırlar: "Terrorçu qrupların oksigen maskası Amerikadadır. Əgər ABŞ oksigeni kəssə, onlar üç gün belə yaşaya bilməyəcəklər".

Eyni versiya Tehranda da davam etdirilir. İranın xarici işlər naziri Abbas Əraqçi suriyalı həmkarı Bassam Sabbagh ilə telefon danışığında terror qruplaşmalarının aktivləşdirilməsini "Təl-Əvivin Livan və Fələstində müqavimət qüvvələri tərəfindən məğlub edilməsindən sonra həyata keçirilən Amerika-İsrail planı" adlandırıb. "Tehran terrorizmlə mübarizədə Suriya hökumətinə, xalqına və ordusuna dəstəyini davam etdirəcək", - o, əmin edib. Diplomat həmçinin Tehrandan Suriya hökumətinə mesaj çatdırmaq üçün təcili Dəməşqə səfər edib. Öz növbəsində, Ağ Evin Milli Təhlükəsizlik Şurasının sözçüsü Sean Savett əmin edib ki, "ABŞ-ın yaraqlıların bu hücumu ilə heç bir əlaqəsi yoxdur", vəziyyəti "yaxından izləyir" və "eskalasiyanı azaltmağa, mülki və azlıqları müdafiə etməyə çağırır".

***V.VƏLİYEV***

# Dəblə soyumuzu necə qurudurlar?

***Dəb, moda insan həyatına girəndən bəri insanlar ondan faydadan çox zərər görür. Maddi problemlər yaratması bir tərəfə, dəbin sonsuzluq, varikoz kimi xəstəliklərinin yüksəlmə statistikasına ciddi təsiri var. Həkimlər xəbərdarlıq edir ki, həddindən artıq dar, neylon, sintetik, kimyəvi geyimlər həm kişilərdə, həm də qadınlarda qarşısıalınmaz, müalicəsi olmayacaq sağlamlıq problemlər yaradır.***



Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, 2023-cü ildə 2026 nəfər qadına ilk dəfə sonsuzluq diaqnozu qoyulub.

Qeyd edək ki, 2022-ci ildə qadın sonsuzluğu ilə 1688 nəfər qadına diaqnoz qoyulub. 2021-ci ildə isə bu rəqəm 1458 nəfərə bərabər olub. Bu da qadın sonsuzluğunun ilbəil artdığını göstərir. 2021-ci il üzrə Azərbaycanda 18-29 yaş daxil olmaqla sonsuzluqdan əziyyət çəkənlərin 102 nəfəri kişi, 759 nəfəri qadın olub. 30 yaşdan yuxarı isə 341 kişi, 1313 qadın sonsuzluqdan əziyyət çəkən kimi qeydiyyata alınıblar. 2020-ci il üzrə isə Azərbaycanda sonsuzluqla bağlı aparılan statistikaya əsasən, 18-29 yaş daxil olmaqla 117 kişi, 798 qadın, 30 yaşdan yuxarı şəxslər arasında isə 680 kişi, 1290 qadın sonsuzluqdan əziyyət çəkir.





Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) bəyanatında bildirilir ki, dünyada təxminən hər altı nəfərdən biri sonsuzluqdan əziyyət çəkir. Bu, dünyanın bütün ölkələrində bütün sosial qruplara təsir göstərir. Təşkilatın baş direktoru bildirib ki, zəngin ölkələrdə böyüklərin 17,8%-nə, orta və aşağı gəlirli ölkələrdə isə 16,5%-nə bu diaqnoz qoyula bilər.



## Sonsuz kişilərin sayı artır

Kişilərin dar şalvar geyməsi isə kişi yumurtalıqlarının (xayaların) bədənə daha yaxın yerdə dayanmasına səbəb olur. Yumurtaların bədəndən daha az temperaturda olması lazımdır, amma dar geyim onları bədənə sıxdığı üçün bədənin temperaturu ilə uyğunlaşır. Bu vəziyyətin də sperma hüceyrələrinin hərəkətliliyinə və sayına mənfi təsir göstərdiyi sübut edilib. Sonsuzluğun başlıca səbəblərindən biri məhz budur.

Mütəxəssislər kişilərə dar şalvar geyməmələrini bir də ona görə tövsiyə edir ki, dar şalvar və dar alt paltarları geymək sperma yollarının tıxanmasına yol aça bilir. Və qeyd etdiyimiz kimi, bunun da sonu məhz sonsuzluqla nəticələnir. Dar geyim geyinən kişilərin sonsuzluğunun eyni zmaanda bir səbəbi də o geyimlə saatlarla oturaraq işləməsidir. Uzun yol sürücüləri, kompyuter arxasında uzunmüddətli işi olanlar da bu qəbildən olanlardır. Dar geyimlər hüceyrələri korlaşdırır, zəiflədir. Bu cür geyimlərin qan dövranına maneə törətdiyi və bunun da toxumaların və hüceyrələrin korlaşmasına səbəb olduğu bildirilir.

## Qadın sonsuzluğu pik həddədir



Qadınların uzun müddət dar şalvar geyməsi damarların sıxılaraq qeyri-normal vəziyyət almasına səbəb olur. Rəhmdə iltihablanma, göbələk, ayaqların büküm yerlərində bədən yaralarına, ayaqlarda varikoz genişlənməyə də səbəb olur. Bu cür geyimlər mütəmadi geyinilərsə rəhm və yumurtalıq xərçənginin peyda olmasına rəvac verir. Daha çox dəbdə olan dar cins şalvarlar əsasən bel və mədənin aşağı bölgəsini həddindən artıq sıxdığına görə mədə yırtılmasına, mədə xorasına-qastritə səbəb ola bilər.

Əsasən yaz-payız aylarında geyilən neylon və sintetik parçalardan hazırlanmış geyimlərin də sağlamlıq baxımından təhlükəli olduğu bildirilir. Tül corablar, gündəlik həyatımızda istifadə etdiyimiz kapron corablar da bu qəbildən olanlardır. Əsasən də revmatizm-yel xəstəliyindən şikayəti olanlar bu cür geyimlərlə öz xəstəliklərini daha da qüvvətləndirirlər. Eyni zamanda, dar geyimlərin digər bir zərəri də qan dövranına maneə törətməsidir. Bu geyimə görə bədənin bəzi bölgələrinə gec çatan qan insanın üşüməsinə səbəb olur.

Qadınların ayaq hissədən daha çox üşüməsi və soyuqlaması bir çox xəstəliyə səbəb olur. Mütəxəssislər bildirir ki, xüsusilə gənc qızlar buna diqqət etməlidirlər. Amma gözəl olmaq, incə və zərif görünmək məqsədi ilə paltarlar diqqətli seçilmir. Gənc qızların istifadə etdiyi dar paltarların parçaları bədənə yapışdığı üçün soyuq hava birbaşa bədənə təsir edir. Halbuki gen-bol bir şalvar arada hava boşluğu yaradır və çöldəki soyuq hava birbaşa bədənə təsir etmir. Tez-tez sidiyə gedən, qarın boşluğunda sancılar olan və cinsi orqanından maye gələn qadınlar bu xəstəlikləri məhz dar geyimin sayəsində qazanırlar.

## Cins başına bəla oldu

Həkimlər dar şalvarların eyni zamanda əzələlərə və sinir sisteminə də zərər vurduğu qənaətindədir. Belə ki, Avstraliyada dar şalvar geyinən 35 yaşlı qadının başına gələnlər bu istiqamətdə araşdırılma aparılmasına təkan verərək çox ciddi bir problemin aşkar edilməsinə səbəb olub. Evini dəyişərkən saatlarla dar şalvarda əyilib əşyaları qutulara yığan qadının ayaqları, daha çox baldırları inanılmaz dərəcədə şişib. Günün sonunda ayaqlarını hiss etməyən qadını təcili həkimə aparıblar, müayinələrdən sonra məlum olub ki, qadın dar şalvarda çömələrək iş gördüyü üçün ayaqlara həddindən artıq basqı olub və nəticədən "kompartman sindiromu" adlanan xəstəlik yaranıb.

Qeyd edək ki, "kompartman" adı verilən bu xəstəlik əzələlərdə şişmə və qanamaya səbəb olan ağrıdır. Dəb dünyasının "skinny jeans" adı verdiyi dar şalvarların əzələləri sıxması səbəbindən geyinməyi məsləhət görməyən həkimlər bu geyimin insanlarda hissiyyatı öldürdüyünü deyirlər. Bu qənatə həkimlər avstraliyalı qadının ayaqlarının şişməsindən sonra yıxılması, təkrar qalxmaq istədikdə isə ayaqlarının hiss edə bilməməsi faktından sonra gəliblər. Qadın yalnız 4 günlük müalicədən sonra normal həyatına dönə bilib.

Ayaqlarında yetərli qədər qan dövran eləməyən dar cins həvəskarları da əzələlərinin hissiyatını az-az itirirlər və bunun hələ fərqində deyillər. Ayaqlardakı şişkinlik və zədələnmə sinir sisteminə də təsir göstərir, hissiyyatın ölməsi də bu səbəbdəndir. Beli qısa dar şalvarlar ikiqat təhlükəlidir, çünki bu şalvarların qısa beli yumurtalıqları sıxaraq fəaliyyətinə mane olur. Eyni zamanda, bədənimizdəki sinir bölgələrindən biri də məhz kəmər yerində yerləşir və çanaq sümüyü bölgəsi bədənimizdəki yeganə yerdir ki, sinirlər dəriyə daha yaxındır. Bu səbəbdən çox sıxılmış kəmərlər də orqanizmə ciddi zərər verir.

Həkimlər xüsusilə də dar şalvarları geydikdə ayaqlarını üst-üstə aşırıb oturmağı ciddi narahatlıqlar yaradacağını da istisna etmirlər. Oturma əsnasında bədən daha çox sıxılır, bu zaman bədəndə dar geyim olduqda isə ayaqlarda uyuşma, sanki iynə batırılmış kimi kiçik sancılar olur. Əgər ağrı və sancılar çoxdursa həkimə müraciət etmək lazımdır. Dolabınızda dəb adı altında gizlənən xəstəlik yaradıcılarını isə istifadə etməyin.

***Lalə Mehralı***

# Məhkəmə Əli Kərimliyə qarşı humanistlik göstərdi

## "Yurd" şefi məhkəmə heyətinə təşəkkür etmək əvəzinə dövlətə qarşı ənənəvi qarayaxma kampaniyası aparır

AXCP Nəzarət Təftiş Komitəsinin sədri Aydın Əliyevin partiya sədri Əli Kərimliyə qarşı qaldırılmış xüsusi ittiham qaydasında cinayət işi yekunlaşıb. Nəsimi rayon məhkəməsinin hakimi Babək Pənahovun çıxardığı hökmlə Əli Kərimli Cinayət Məcəlləsinin 147.1 maddəsi ilə təqsirli bilinib və 1500 manat cərimələnib. Hər iki tərəf qərardan narazı olduğu müşahidə edilir. Belə ki, Aydın Əliyev Əli Kərimlinin 6 aydan 2 ilə qədər azadlıqdan məhrum edilməsini istəmişdir. Məhkəmə isə Azərbaycanın hüquqi dövlət quruculuğuna sadiq olması və insan azadlıqlarının müdafiəsinə xüsusi diqqət ayırması səbəbindən A.Əliyevin iddiasını qismən təmin etməklə, həm də böyük humanistlik göstərərək Əli Kərimlini azadlıqdan məhrum etməmiş və 1500 manat cərimə ilə kifayətlənmişdir. Ə.Kərimli və ətrafı isə məhkəmənin xeyirxah davranışını və humanist qərarını alqışlayıb, məhkəmə heyətinə təşəkkür etmək əvəzinə dövlətə qarşı ənənəvi qarayaxma kampaniyası aparırlar. Niyə Ə.Kərimli məhkəməni humanist öz əxlaqına uyğun dəyərləndirir? Sualı cavablandırmazdan əvvəl qeyd etmək lazımdır ki, bizimlə söhbətində məhkəmə iddiasını onunla əsaslandırmışdır ki, Ə.Kərimli Sevinc Osmanqızının, Q.Zahidovun və digər xaricdəki azərbaycanlı mühacirlərin yaratdıqları internet TV-lərdə onun şərəf və ləyaqətini təhqir edib: "Əli Kərimli sözdə demokratiyadan, söz azadlığından danışır, əməldə isə partiya daxilində sərt diktatura rejimi yaradıb. Açıq fikir söyləyənlər, demokratik idarəetmə tələb edənlər sərt şəkildə cəzalanırlar".

### Aydın Əliyev vəkili ilə məsləhətləşmələr aparır

Aydın Əliyevin Ə.Kərimliyə qarşı xüsusi ittiham qaydasında qaldırdığı iddia haqlı və əsaslıdır. Azərbaycan qanunvericiliyinə görə də hər bir ölkə vətəndaşı razılaşmadığı və ya üzləşdiyi hər hansı bir problemin məhkəmə qaydasında baxılıb qərar verilməsi üçün məhkəməyə müraciət etmək hüququ var. Özünü ixtisasca hüquqşünas hesab edən Ə.Kərimli bunu bilməmiş deyil. A.Əliyev Azərbaycan Respublikası qanunlarının ona verdiyi imkandan istifadə edib. Yəni ölkə vətəndaşı olaraq Ə.Kərimlinin ona qarşı haqsız davranışı, kobud rəftarı, təhqir və tənqidlərini əsassız hesab edərək məhkəməyə müraciət edib. Bu onun hüququdur. Nəsimi rayon məhkəməsinin çıxartdığı qərarla razı olub-olmaması isə onun atacağı növbəti addımlardan sonra məlum olacaq. Hələlik isə görünən ondan ibarətdir ki, A.Əliyev vəkili ilə məsləhətləşmələr aparır. Bunun fonunda Ə.Kərimlinin və ətrafındakı trolların A.Əliyevi "hakimiyyətin adamı", "hakimiyyətin sifarişlərini yerinə yetirən şəxs" kimi təqdim edib, sosial şəbəkələrdə hay-küy qaldırmaq, savadsızlığın və bədbəxt durumda olmağın nəticəsidir.

Qərarın elan olunduğu dəqiqədən məhkəmə önündə iğtişaş törətməkdən çəkinməyən və jurnalistlərin önündə şər və böhtanlar səsləndirməklə kifayətlənməyən Ə.Kərimli və ətrafında olan trollar sosial şəbəkələrə çıxaraq əsassız iddialar və ittihamlarla çıxış edirlər. Bildirirlər ki, guya A.Əliyevin iddiası əsassız olub və bu baxımdan da Ə.Kərimliyə bəraət verilməli idi. Digər trollar, xüsusilə Ayaz Məhərrəmli, Fuad Qəhrəmanlı, Seymur Həzi, İlham Hüseyn və digərləri isə bozbaş fars mollalarısayağı mövqe ortaya qoyaraq iddia edirlər ki, guya məhkəmə əvvəl Ə.Kərimlini həbs etmək istəyib, lakin sonradan beynəlxalq təzyiqlərin olacağından ehtiyat edərək, iş 1500 manat cərimə ilə yekunlaşıb. Başqa sərsəmələr, axmaqsayağı ifadələr, hətta şou və məzhəkə xarakterli ifadələr də səsləndirilib, statuslar paylaşılıb. Elə təqdim etməyə çalışırlar ki, sanki Ə.Kərimli cəmiyyət də reytingi olan və böyük sosial bazaya malik partiyanın sədridir. Halbuki Ə.Kərimlinin rəhbərlik etdiyi partiya siyasi arenada ən zəif və cəmiyyətdə



gedən ictimai -siyasi proseslərdə geridə qalan, bəzən mövcudluğu heç nə ilə hiss olunmayan partiyadır. Səbəbidə Ə.Kərimlinin səhv və yanlış siyasət aparmasıdır.

### Əli Kərimlini fəlakətli siyasi sonluq gözləyir

AXCP-nin bir növ Ə.Kərimlinin şəxsi firması kimi fəaliyyət göstərdiyini desək, səhv etmərik. Çünki partiyada qərarlar və atılan addımlar Ə.Kərimlinin istəyi ilə atılır. Etiraz bildirən, narazılıq edənlər AXCP sıralarından xaric edilirlər. A.Əliyevlə Ə.Kərimli arasında bir qədər əvvəl baş tutan və birincinin xeyrinə başa çatan məhkəmə çəkişməsi də Ə.Kərimlinin hegemonluğundan yaranmışdır. Ə.Kərimli partiyada müstəqil mövqeyi və fəaliyyəti ilə seçilən A.Əliyevin NTK-nın sədri seçilməsi ilə razılaşmayaq ona qarşı kampaniya aparmış və sonda "qəlib" gəlmişdir. Bununla bağlı fikirlərini bizimlə bölüşərkən A.Əliyev bildirdi ki, onun 27 sentyabr 2015-ci ildə AXCP-nin qurultayında Nəzarət Təftiş Komissiyasına üzv, sonra isə sədr seçilməsi Ə.Kərimlinin ürəyincə olmayıb: "Ə.Kərimli bütün imkanları ilə mənə partiya nizamnaməsinin tələblərinə uyğun olaraq fəaliyyət göstərməyimə imkan verməyib. Nəhayət, AXCP Ali Məclisinin Rəyasət Heyətinə təzyiqlər etməklə 10 iyun 2019-cu ildə məni partiya sıralarından xaric edib. AXCP Ali Məclisinin Rəyasət Heyətinin qərarı ilə razılaşmayaraq yığıncağın qərarının ləğv edilməsi, AXCP üzvlüyünə və AXCP Nəzarət Təftiş Komissiyasının sədri vəzifəsinə bərpa olunmağımla bağlı Nəsimi rayon Məhkəməsində iddia qaldırdım. Məhkəmə 2020-ci ilin iyun ayında iddiamı təmin etdi. Əli Kərimli həmin qərardan şikayət versə də, Bakı Apellyasiya Məhkəməsi şikayəti təmin etmədi. Əli Kərimli məhkəmə qərarından sonra mənimlə görüşdü və söz verdi ki, NTK sədri kimi normal fəaliyyət göstərməsi üçün ona hər cür şərait yaradılacaq. Hətta mənimlə görüş əsnasında partiyanın təşkilat şöbəsinə də zəng edib, göstərişlər verdi. Lakin sonradan sözünün üstündə durmadı. NTK-nın üzvləri çağırılan toplantılara gəlmədilər. Bu məsələ də Ə.Kərimlinin göstərişi olduğu şübhəsizdir. Bu azmış kimi partiyanın növbəti qurultayı keçirilən zaman kobud nizamnamə pozuntularına yol verildi. Mən buna etiraz etdikdə Ə.Kərimlinin göstərişi əsasında məni fitə basdılar, təhqir etdilər. Mən isə səbirli oldum və qurultayın nəticələrinin ləğv edilməsi və növbəti qurultayın keçirilməsi barədə məhkəmədə iddia qaldırdım. Təşəkkür edirəm ki, məhkəmə mənim iddiamı təmin etdi".

Bir sözlə görünən fakt ondan ibarətdir ki, A.Əliyev üzləşdiyi haqsızlığı hüquqi müstəvidə həll etməyə çalışır. Ə.Kərimli isə hay-küy qaldırmaq, şər və böhtanlar səsləndirmək, xaricdəki erməniпərəst dairələrə üz tutmaqla nəyəsə nail olmağa cəhd göstərir. Ona görə də Ə.Kərimli uzun illərdir ki, uğursuzluq zolağından çıxa bilmir. Mövcud kurs dəyişməsə Ə.Kərimlini fəlakətli siyasi sonluq gözləyir.

***İLHAM ƏLİYEV***

# Yağları qızartmaq düzgündürmü?

"Qızartmaq üçün istifadə olunan yağlar arasında günəbaxan, qarğıdalı və palma yağı daha uyğundur. Bu yağların yüksək yanma nöqtələri var, yəni qızartma temperaturuna dözümlüdürlər". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Ceyhunə Yusifova deyib. O bildirib ki, zeytun yağı isə, xüsusilə extra virgin zeytun yağı, daha aşağı yanma nöqtəsinə sahibdir, bu da onu qızartmaq üçün daha az uyğun edir: "Yağı qızartmaq olar, amma bu, istifadə olunan yağın növünə və tərkibinə bağlıdır. Yüksək yanma nöqtəsinə malik olan yağlar, qızartma prosesində daha stabil olur və daha sağlam seçimlərdir. Həmçinin, qızartma prosesində yağın kimyəvi tərkibinin dəyişməsi və qida məhsulunun keyfiyyətinin düşməsi ehtimalını azaltmaq üçün yağı bir dəfə istifadə etdikdən sonra yenidən istifadə etməmək daha yaxşıdır.

Yağların sağlamlığa təsiri, onların tərkibindəki yağ turşuları və digər komponentlərə bağlıdır.

**1. Zeytun yağı:**

- Sağlam: Extra virgin zeytun yağı sağlam yağlar arasında ən tanınmışıdır. O, doymamış yağ turşuları ilə zəngindir və antioksidant xüsusiyyətlərə malikdir. Üstəlik gün ərzində istifadəsi ürək-damar sağlamlığına müsbət təsir edir.



**2. Günəbaxan yağı:**

- Nisbətən sağlam: O, yüksək omega-6tərkibinə malikdir. Ancaq omega-6-nın çox alındığı zaman, bədən balansı pozula və iltihabi reaksiyalar artırıla bilər. Yüksək temperatura qızartma üçün istifadə edildikdə, trans yağların yaranma riski ola bilər.



**3. Qarğıdalı yağı:**

- Nisbətən sağlam: Qarğıdalı yağı da yüksək omega-6 tərkibinə malikdir. Bununla yanaşı, qızartma mühitində daha az stabil olduqları üçün, yüksək temperaturda istifadəsi daha az tövsiyə olunur.

**4. Palma yağı:**

- Sağlamlıq baxımından mübahisəlidir: Palma yağı doymuş yağlar baxımından zəngindir. Doymuş yağların yüksək miqdarda istehlakı ürək xəstəliklərinin riskini artıracağı düşünülür.

Ümumiyyətlə, zeytun yağı, sağlamlıq üçün ən yaxşı seçim olduğunu göstərir. Günəbaxan və qarğıdalı yağları ara-sıra istifadə oluna bilər, amma mütləq balanslı qida pəhrizində yer almalıdır. Palma yağı isə ehtiyatla istehlak edilməlidir, çünki onun doymuş yağ tərkibi var. Hər zaman sağlam yağların istifadəsi dərəcəsində müxtəliflik yaratmaq tövsiyə olunur.

Sağlam yağlar, tərkibindəki yağ turşularının növünə, keyfiyyətinə və orqanizmdəki təsirinə görə müəyyən edilir. Aşağıda sağlam yağların bəziləri və onların xüsusiyyətləri barədə məlumat təqdim edib edirəm:

**1. Zeytun yağı:**

- Extra virgin zeytun yağı, təkli doymamış yağ turşuları ilə zəngindir. Antioksidant xüsusiyyətlərə malikdir və ürək-damar sağlamlığını dəstəkləyir.

**2. Avokado yağı:**

- Yüksək doymamış yağ turşuları tərkibinə malikdir və vitamin E, antioksidantları edir. Həmçinin, zeytun yağına bənzər sağlam xüsusiyyətlərə malikdir.

**3. Kətan toxumu yağı:**

- Omega-3 yağ turşuları (alpha-linolenic acid, ALA) baxımından zəngindir. Ürək sağlamlığına faydalıdır.

**4. Balıq yağı:**

- Omega-3 yağ turşuları (EPA və DHA) ilə zəngindir. Ürək-damar sağlamlığı, beyin funksiyaları və iltihabların azaldılması üçün faydalıdır.

**5. Qoz yağı:**

- Omega-3 və omega-6 yağ turşuları balanslı tərkibi ilə sağlam yağlar arasında yer alır. İltihabları azaldır və ürək sağlamlığına müsbət təsir göstərə bilər.

**6. Hindistancevizi yağı:**

- Doymuş yağ turşuları tərkibi yüksəkdir, amma MCT (medium-chain triglycerides) ilə zəngin olması səbəbi ilə müsbət təsirlər yarada bilər. Ancaq bu yağı müvafiq dərəcədə istifadə etmək tövsiyə olunur, çünki doymuş yağların çox istehlakı sağlamlığa zərər verə bilər".

***Söylü Ağazadə***

# "Azərbaycan Cənubi Qafqazda Qərbə boyun əyməyən yeganə dövlətdir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*





Politoloq Mixail Belyayev "Moskva-Baku" portalına müsahibəsində Gürcüstanda vəziyyətin gərginləşməsi, Ermənistanla Qərb arasında davam edən yaxınlaşma və yaranmış vəziyyətin Cənubi Qafqazın gələcəyi üçün nəticələrini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Mixail Kimoviç, Gürcüstanda vəziyyət ölkə hakimiyyətinin Aİ-yə üzvlüklə bağlı danışıqların 2028-ci ilə təxirə salındığını elan etməsindən sonra ciddi şəkildə pisləşib. Rusiya siyasətçiləri artıq Gürcüstanda Ukrayna ssenarisini həyata keçirmək cəhdindən danışırlar. Ermənistanda ABŞ qərbyönlü partiyaları təbliğ edir ki, onlar sonda Nikol Paşinyanın Avropaya doğru kursuna nəzarət etməyə başlasınlar... Qərbin Cənubi Qafqazda məqsədləri nədən ibarətdir?***

- Qərb Rusiya ilə həmsərhəd olduğu üçün Cənubi Qafqazı rahat qoymur. Geosiyasi baxımdan bu, strateji məqamdır. Qərb başa düşür ki, Qafqaz ölkələrində yerləşərsəbu ölkələrdə hakimiyyətə gətirdiyi rejimlər sayəsində, ölkələrin müxtəlif həyat institutlarını nəzarətə götürməsi sayəsində, gizli və hətta açıq hərbi mövcudluğu sayəsində bu, Rusiya Federasiyası üçün ciddi problemlər yaradacaq. Rusiya Ukrayna istiqamətindən əlavə (əgər indiki vəziyyətdən danışırıqsa) regionda anti-Rusiya qurşağının formalaşmağı ilə mübarizə üçün əlavə vəsait xərcləməli olacaq. Rusiya Federasiyası isə təbii ki, bu cəhdlərlə uzun müddət mübarizə aparır. Amma Qərbin can atdığı ən pis ssenari Cənubi Qafqazda Rusiyaya qarşı ikinci cəbhənin açılmasıdır. Qərb qüvvələri Gürcüstan hakimiyyətindən bunu istədi və nəticədə dəfələrlə rədd cavabı aldı.

Gürcüstan hakimiyyəti "qərblilərlə" razılaşmadıqları məqamların sayını artırmağa başlayan kimi, onlar suveren siyasət yeritməyə cəhd etməyə başlayan kimi, dərhal tufan qopdu. Gürcüstanın Aİ-yə potensial üzvlük formasında fəaliyyətini dayandırıb. Məlum oldu ki, Gürcüstan hakimiyyəti Qərbin diktəsinə tabe olmaq niyyətində deyil, eyni zamanda, gələcəkdə Avropaya inteqrasiyadan da əl çəkməyəcək. Bu, o deməkdir ki, Gürcüstan rəhbərliyi hesab edir ki, indi ölkənin Aİ-yə inteqrasiyasının müzakirəsi dövlətə zərər verəcək.

Gürcüstandakı hazırkı vəziyyətdən nümunə götürdükdə, Qərbin eyni sxemlərdən necə istifadə etdiyini görürük. Sentyabrda keçirilən parlament seçkilərinin guya qeyri-legitim olduğunu, bütün bunların bir daha yoxlanılaraq ləğv edilməsinə ehtiyac olduğunu bildirirlər. Bu sxemdən neçə dəfə istifadə olunub? Həm də ona görə ki, hakim "Gürcü arzusu" Qərblə ziddiyyət təşkil etməyə və onun tələblərini yerinə yetirməkdən imtina etməyə başladı. Ukraynada Qərbin indi Gürcüstana tətbiq etdiyi kart tam olaraq yox, işə yaradı və Rusiyanı Qərbin bu cür siyasətlərinə qarşı öz resurslarından istifadə etməyə məcbur etdi.

Əgər Qərb Gürcüstanda və Ermənistanda bu kartı oynaya bilsə, dövlət çevrilişi edib öz adamlarını hakimiyyətə gətirə bilsə, bu, Rusiya üçün də, Azərbaycan üçün də, İran üçün də, Türkiyə üçün də problem olacaq. Bölgə yanacaq.

Ermənistanda qərbyönlü Paşinyan hələ də ehtiyatlı davranır və eyni vaxtda iki kresloda oturur- o, hələ də Rusiya ilə münasibətdən lazım olanı götürür, eyni zamanda Qərbin tələblərini yerinə yetirir. Amma bu ikili oyunu görən Qərb artıq Ermənistanın baş nazirinin cilovunu möhkəm saxlamağa və ölkədəki qərbyönlü partiyaları daha da nüfuzlu etməyə çalışmağa qərar verib. Belə ki, onlar sonda parlamentə daxil olsunlar və Ermənistanın baş naziri tərəfindən Qərbin tələblərinin yerinə yetirilməsinə nəzarət etsinlər. Əgər bunu etməsə, onun yerinə Rusiya ilə münasibətləri pozmağa daha radikal meyilli lider qoyacaqlar.

Qərblə Qafqaz xalqlarının rifahı bir araya sığmayan şeylərdir. Cənubi Qafqazın strateji yerləşməsi ilə yanaşı, region ölkələri mineral ehtiyatlara malikdir. Məlum olub ki, Ukraynada qara torpaq və kömürdən başqa, bol litium və titan var. Ona görə də Qərb onu tutdu və buraxmayacaq. Məhz eyni nöqteyi-nəzərdən "qərblilər" bütün Zaqafqaziyanı öz çadırlarına almağa çalışırlar.

Lakin Ukraynanı bu qədər yönləndirən Qərb onu nə Aİ-yə, nə də NATO-ya qəbul etdi. Və bu gün Qərbdə bir çoxları Ukrayna ətrafındakı vəziyyətlə bağlı artıq skeptik fikirlər səsləndirirlər. Əvvəllər Qərbdə iqtisadi imkanlar tamam başqa idi. İndi o, böhranın astanasındadır. Və onun Ukraynaya sonsuz iqtisadi və digər dəstək formasında yükə ehtiyacı yoxdur.

***- Nəyə görə Azərbaycan Cənubi Qafqazda Qərbin təzyiqlərinə ən çox müqavimət göstərən dövlətə çevrildi?***

- Bu, bir neçə faktorun birləşməsinin nəticəsidir. Bu gün Azərbaycanı Cənubi Qafqazın forpostu adlandırmaq olar. O, başqalarına, yeri gəlmişkən, təkcə regionda deyil, dövlət üçün müsbət nəticə verən səmərəli siyasətin necə aparılmasını nümunə göstərir. Birinci amil odur ki, Azərbaycanın əlində iqtisadiyyatın üzərində qurulduğu neft hasilatı kimi nəhəng kozır var. Bir iqtisadçı kimi deyim ki, bu, ölkə hakimiyyətinin indi sarsılmaz siyasətini qura bildiyi əsasdır. Məsələn, neft ölkələri var ki, onun səsinə dünyada qiymət verilməsi üçün öz resurslarından tam istifadə edə bilməyiblər.

İkinci amil ondan ibarətdir ki, Azərbaycan Şərqlə Qərbin qovşağında yerləşir və onun nəqliyyat və logistika baxımından əsas əhəmiyyətini dərk edir.

Üçüncü amil, nə etmək lazım olduğunu, kiminlə müttəfiqlik etmək, çətinlikləri qabaqcadan görmək, düzgün strategiya qurmaq, onlara necə müqavimət göstərmək lazım olduğunun incə hissidir.

Birlikdə götürsək, Bakının əlində olan bütün kozırlardan məqsədəuyğun istifadə, rəhbərliyin müdrik yanaşması, siyasi iradə- bütün bunlar ölkəyə Qərbin təzyiqlərinə və çağırışlarına müqavimət göstərməyə imkan verir. Güclü iqtisadiyyat, güclü dövlət quruculuğu, güclü ordu olmasaydı, Azərbaycan öz ərazilərini geri qaytara bilməzdi. Bunlar hamısı bir-birindən asılı olan şeylərdir.

Buna əsaslanaraq, bu gün Azərbaycan həqiqətən də suveren dövlət kimi yalnız öz milli maraqlarına əməl etmək, Qərbi açıq tənqid etmək, həmçinin daha ədalətli çoxqütblü dünyanın qurulmasında fəal iştirak etmək iqtidarındadır.

Azərbaycan isə Rusiyanın bir dövlət kimi əhəmiyyətini anlayır və öz siyasətini, o cümlədən Rusiya Federasiyasının maraqlarını dərk edərək qurur. Biz birlikdə bu gün Avrasiyanın təhlükəsizliyini gücləndiririk. Digər məsələlərlə yanaşı, bu gün Qərbin yaratdığı və gücləndirdiyi təhdidlərə qarşı tarazlıqda. Azərbaycan və Rusiya Qərbin Cənubi Qafqazda sabitliyi pozmaq cəhdləri ilə fəal mübarizə aparır.

Artıq Azərbaycanın nöqteyi-nəzəri, səsi dünyada eşidilir və ciddi qəbul edilir. Bakının bugünkü siyasəti ona layiqdir ki, Azərbaycan beynəlxalq aləmdə nüfuzlu dövlətdir. Bu, digər ölkələr üçün nümunədir. Hətta bəzi Qərb dövlətləri də Azərbaycanı misal gətirirlər. Eyni zamanda, Ermənistan və Gürcüstanın son illər dünyada və dövlət quruculuğunda nüfuzları baxımından hər hansı irəliləyiş əldə etdiyini görmürəm. Tiflisin Qərbin qaydaları ilə oynamamaq cəhdi indi Gürcüstana zərbə vurur. Görək "Gürcü arzusu" yaşaya biləcəkmi?



***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
4 dekabr
2024-cü il

# DİQQƏT: Qışda dərslər gec başlayacaq?



## AYDINLIQ GƏTİRİLDİ

"Qış aylarında dərslərin 1 saat gec başlaması həm şagirdlərin fiziki və psixoloji sağlamlığı, həm də tədris prosesinin keyfiyyətinin artırılması baxımından vacib və məqsədəuyğun bir təklifdir. Bu təklifin arxasında dayanan əsas amillər qış aylarında hava şəraitinin çətinliyi, günlərin qısalması və şagirdlərin erkən saatlarda məktəbə gedərkən qarşılaşdıqları çətinliklərdir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Kamran Əsədov sözlərinə belə davam edib: "İlk növbədə, hava şəraiti nəzərə alınmalıdır. Dekabr, yanvar və fevral aylarında günəş daha gec çıxır və bu, şagirdlərin tam qaranlıqda yola çıxmasını tələb edir. Bu şəraitdə uşaqların təhlükəsizliyini təmin etmək çətindir. Sürüşkən yollar, qar və buz məktəbə gediş-gəlişi təhlükəli edir. Həmçinin, bu aylarda hava soyuq olduğundan şagirdlər məktəbə gedərkən xəstələnmə riski ilə üzləşirlər. Dərslərin daha gec başlaması şagirdlərə hava şəraitinin bir qədər yüngülləşdiyi, yolların işıqlandığı bir vaxtda məktəbə getmək imkanı verər.

Şagirdlərin psixoloji və fiziki rifahı da nəzərə alınmalıdır. Qış aylarında erkən qalxmaq uşaqlar üçün ciddi yuxu problemlərinə səbəb ola bilər. Uşaqların yuxu ehtiyacı onların təbii inkişafı üçün olduqca vacibdir. Yetərincə yuxu almayan şagirdlər dərslərdə yorğun, diqqətsiz və motivasiyasız olurlar. Bu vəziyyət onların akademik göstəricilərinə birbaşa təsir göstərir. Erkən saatlarda başlayan dərslər təkcə fiziki yorğunluğa deyil, həm də zehni yorğunluğa səbəb olur ki, bu da biliklərin mənimsənilməsini çətinləşdirir. Dərslərin bir saat gec başlaması isə bu problemi azalda bilər və uşaqların daha sağlam yuxu rejiminə malik olmasını təmin edər.

Tədris prosesi baxımından bu təklifin tətbiqi təhsilin keyfiyyətinə müsbət təsir göstərə bilər. Daha yaxşı yuxu rejiminə malik olan şagirdlər dərslərdə daha aktiv və diqqətli olurlar. Bununla yanaşı, müəllimlər də daha az yorğun və daha məhsuldar şəkildə tədris apara bilərlər. Erkən dərs saatları yalnız şagirdlər üçün deyil, həm də müəllimlər və valideynlər üçün əlavə stress mənbəyi ola bilər. Dərslərin bir saat gec başlaması tədris prosesini daha rahat və effektiv edə bilər.

Valideynlər baxımından da bu yanaşma məntiqli görünür. Bir çox valideyn iş gününə saat 9-da başlayır və uşaqları məktəbə daha erkən aparmaq məcburiyyətində qalır. Bu, onların gündəlik rejiminə əlavə yük gətirir. Dərslərin bir saat gec başlaması valideynlərə daha çevik hərəkət etmə və öz iş qrafikini uşaqların məktəbə gedəcəyi vaxtla uyğunlaşdırmaq imkanı verir.

Dünya təcrübəsinə nəzər salsaq, bəzi ölkələr artıq dərs saatlarını qış mövsümündə dəyişdirərək daha uyğun bir cədvəl tətbiq ediblər. Məsələn, Skandinaviya ölkələrində şagirdlərin sağlamlığı və təhlükəsizliyi nəzərə alınaraq dərs saatlarının tənzimlənməsi praktikası mövcuddur. Bu yanaşma qışın çətin şərtlərini yüngülləşdirmək və təhsilin effektivliyini artırmaq məqsədini güdür.

Nəticə olaraq, qış aylarında dərslərin bir saat gec başlaması həm şagirdlərin sağlamlığı və təhlükəsizliyi, həm də tədris prosesinin keyfiyyəti baxımından məqsədəuyğundur. Bu dəyişiklik şagirdlərin məktəbə daha hazır və motivasiyalı şəkildə gəlməsinə, valideynlərin daha rahat bir rejimə malik olmasına və təhsil prosesinin daha effektiv təşkil olunmasına imkan yaradacaqdır. Təhsildə bu cür sadə, lakin təsirli dəyişikliklər uzunmüddətli perspektivdə cəmiyyətin rifahına mühüm töhfə verə bilər".

*Ayşən Vəli*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Dil öyrənmək üçün 69 yaşında tələbə oldu



***Türkistan şəhərindəki (Qazaxıstan) Əhməd Yasəvi Universitetinin 69 yaşlı tələbəsi Kadriye İşıklı qazax dilini öyrənmək və yerli mədəniyyətlə tanış olmaq üçün İstanbuldan gəlib. Qazaxıstanın Elm və Ali Təhsil Nazirliyinin məlumatında deyilir ki, Türkiyədə "Turizm" ixtisası üzrə ali təhsil almış üç uşaq anası universitetin tarixi ərzində ən yaşlı tələbəsi olub.***

Kadriye İşıklı dünyanın 20-yə yaxın ölkəsini gəzib və indi Mərkəzi Asiya mədəniyyətini dərindən öyrənmək üçün Türküstandadır.

## Uğursuz plana 904 milyon dollar xərclənib - Britaniya ŞOKDA!

***Böyük Britaniyada qalmaqala səbəb olan məlumat yayılıb. Sən demə bu ölkənin səlahiyyətliləri qeyri-qanuni miqrantların Ruandaya deportasiyası üçün heç vaxt həyata keçirilməyən plana təxminən 904 milyon dollar xərcləyib. Bu barədə Britaniya hökumətinin saytında məlumat verilib. Məlumata görə, Böyük Britaniya Daxili İşlər Nazirliyi bu məbləği 2022-ci ilin aprelindən cari ilin iyununa qədər olan müddətdə xərcləyib.***



O, qeyd edildiyi kimi, Ruandanın iqtisadi inkişafını, miqrantların qəbulu və yerləşdirilməsi prosesini dəstəkləmək, Ruandaya uçuşların təhlükəsizliyini təmin etmək və yerləşdirmə mərkəzlərini optimallaşdırmaq üçün nəzərdə tutulan pulları əhatə edir. Britaniya mediası afrtıq hökumətin bu uğursuz planı və xərclənən vəsaitlə bağlı sərt yazlar dərc etməyə başlayıblar. Britaniya mediası bu qədər vəsaitin havaya sovrulmasının konkret cinayət əməli olması barədə kəskin fikirlər səsləndiriblər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700